www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 30 avqust 2017-ci il Çərşənbə № 180 (6794) Qiymәti 60 qəpik

**Xəbər**

## Salyanda və Lənkəranda dəhşətli intihar

yazısı səh.4-də

## Rusiya həm qorxur, həm də qorxudur - yeni gəlişmə

# PUTİN İKİ EMİSSAR GÖNDƏRDİ: BİRİNİ İRƏVANA, BİRİNİ QARABAĞA

"Rus NATO-su"nun erməni baş katibi Ermənistana 3 günlüyə niyə gəlib, abxaz "xarici işlər naziri" Kremlin izni olmadan Xankəndində peyda ola bilərdimi; **politoloq:** "Ermənilər narahat olmağa başlayıblar ki..."




yazısı səh.9-da

## Trampla bağlı hotel qalmaqalı və Ziya Məmmədovun "barmağı"

Donald Trampın şirkətinin prezident kampaniyası ilə eyni vaxtda Moskvada «Trump Tower» tikmək barədə danışıqlar apardığı üzə çıxıb; sabiq nəqliyyat naziri Kremlə vasitəçi ola bilərdimi?

yazısı səh.3-də

**Gündəm**

### "Amnesty International"dan Azərbaycana qarşı təxribat

AMNESTY INTERNATIONAL

Rəsmi Bakı araşdırmalara başladı, **Hikmət Hacıyev:** "Bu şəxsin adı "arzuolunmaz şəxslər"in siyahısına daxil ediləcək"

yazısı səh.5-də

### Qarabağda Şofer dönəmi başladı-hərb, yoxsa sülh...

yazısı səh.8-də

### Lapşinin ekstradisiyası ilə bağlı müəmma

yazısı səh.5-də

### Məktəb direktoru ilə jurnalist arasında qalmaqal

yazısı səh.6-da

### Myanmada kütləvi müsəlman qırğınına Bakıdan reaksiya

yazısı səh.12-də

### Müxalifətin Elçibəy nisgili

yazısı səh.3-də

*Ekspert:*

### "İŞİD ərazilərini itirdikcə, dünyanın başqa yerlərinə səpələnəcək"

yazısı səh.12-də

### Məktəbli forması seçimi-ekspertlərdən "qızıl" məsləhətlər

yazısı səh.14-də

### Prosineçki Norveçdən Bakıya nə gətirəcək?

yazısı səh.15-də

### Eldar Mahmudovun revanşı

yazısı səh.6-da

### Dünyadakı əcaib və gülməli qadağalar...

yazısı səh.13-də



### Vəkili Cahangir Hacıyevin durumu haqda: "Burnu qanayır, yıxılır..."

yazısı səh.4-də



### Vasif Talıbovun "30 kitab oxuyun" sərəncamına fərqli reaksiyalar

yazısı səh.7-də



### Mehman Əliyevin Putinə yazdığı məktub - 4 il öncə nə baş veribmiş?

yazısı səh.9-da

YENİ MÜSAVAT
N 180 (6794) 30 avqust 2017



# Prezident Qurban bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib

**Prezident İlham Əliyev Qurban bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib. Təbrikdə öz demokratizmi, humanizmi və bəşəri idealları ilə dünya sivilizasiyasının möhtəşəm səhifəsini təşkil edən İslam dininin xalqımızın dünyagörüşünün formalaşmasında və milli-mədəni inkişafında müstəsna rol oynadığı, mütərəqqi islami dəyərlərin və ənənələrin Azərbaycanda həmişə uca tutulduğu bildirilir.**

Dövlət başçısı qeyd edir ki, İslamın bir din kimi tamamlanmasını və mənəvi-əxlaqi qurtuluş yolu olaraq bəşəriyyətə göndərilməsini özündə təcəssüm etdirən mübarək Qurban bayramı insanları mərhəmətə, həmrəyliyə və qardaşlığa dəvət edən bir bayramdır. Bu əziz gündə müsəlmanlar Allah yolunda hər cür fədakarlığa hazır olduqlarını nümayiş etdirir, uca Tanrıya yaxınlığın fərəhini yaşamaq fürsəti əldə edirlər.

Vurğulanır ki xalqımız öz milli-mənəvi dəyərlərinə və ənənələrinə həmişə ehtiramla yanaşır. Bütün dini mərasimlər, o cümlədən Qurban bayramı hər il böyük təntənə ilə qeyd edilir. Ölkəmizin hər yerində Allahın adına qurbanlar kəsilir, geniş xeyriyyəçilik işləri görülür, dövlətimizin tərəqqisi və əmin-amanlığı üçün dualar edilir, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. Dövlətimizin başçısı əmin olduğunu bildirir ki, builki Qurban bayramı da cəmiyyətimizdə milli-mənəvi həmrəyliyin, xeyirxah əməllərin, şəfqət və mərhəmət duyğularının təntənəsinə çevriləcəkdir.

Dövlət başçısı təbriki bu sözlərlə bitirir: "Əziz bacı və qardaşlarım, bu mübarək gündə bir daha hamınıza Ulu Tanrıdan möhkəm cansağlığı, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram. Qurban bayramınız mübarək olsun!"

# Məhərrəmlik sentyabrın 22-də başlayır

**Məhərrəm ayının başlanma və Aşura gününün tarixi məlum olub. Qafqaz Müsəlmanları İdarəsindən verilən məlumata görə, bu il Məhərrəm ayı sentyabrın 22-də başlayır. Aşura günü isə oktyabrın 1-nə təsadüf edir. Bildirilir ki, ənənəvi olaraq Azərbaycanda Aşura mərasimləri, mövcud qanunvericiliyə əsasən, məscidlərdə, ibadət ocaqlarında və onlara aid ərazilərdə ictimai asayiş qaydalarına riayət olunmaqla keçirilməlidir.**

Bununla bağlı QMİ Qazılər Şurasının fətvası da olacaq.

Bu il Qədir-Xum bayramı isə sentyabrın 9-da qeyd ediləcək.

# "Çelsi"-"Qarabağ" oyununa baxmaq istəyənlər üçün viza sadələşdirilib

**Böyük Britaniyanın Bakıdakı səfirliyi "Qarabağ" komandasının Çempionlar Liqasının qrup mərhələsinin I turunda "Çelsi" ilə səfər oyununu izləməkdən ötrü İngiltərəyə getmək istəyən azarkeşlərə viza vermək üçün əlavə günlər təyin edib.**

Səfirlikdən verilən məlumata görə, fanatlar bununla bağlı 29 - 31 avqustda Viza Ərizə Mərkəzinə müraciət edə bilərlər. Bu addım vizanı vaxtında əldə edə bilmək üçün atılıb.

Qeyd edək ki, sentyabrın 12-də Londondakı "Stemford "Bric" stadionunda keçiriləcək "Çelsi" - "Qarabağ" oyunu Bakı vaxtı ilə saat 22:45-də başlayacaq.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

# Qurban bayramı ilə əlaqədar Bakıda yarmarkalar təşkil olunacaq

**Sentyabr ayının 1-də səhər saat 9:00-dan etibarən Qurban bayramı ilə əlaqədar əhalinin qurbanlıq heyvanlara olan tələbatının daha dolğun ödənilməsi, eləcə də süni qiymət artımının qarşısının alınması məqsədilə Kənd Təsərrüfatı Nazirliyi İqtisadiyyat Nazirliyi ilə birlikdə Bakı şəhərində təşkil etdiyi qurbanlıq heyvanların satış yarmarkaları fəaliyyətə başlayacaq.**

Bu barədə "APA-Economics"ə Kənd Təsərrüfatı Nazirliyindən məlumat verilib.

Bu il yarmarkalarda ilk dəfə olaraq Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olan Dövlət Kənd Təsərrüfatı İstehsalı Müəssisələrində (DKTİM MMC-lər) yetişdirilən xırda buynuzlu erkək heyvanlar satışa çıxarılacaq.



# Ekologiya Nazirliyi meşə yanğınları ilə bağlı məlumat yaydı

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi meşə yanğınları ilə bağlı məlumat yayıb.**

Nazirliyin mətbuat xidmətindən modern.az-a verilən məlumatda bildirilib: "28 avqust 2017-ci il tarixində Qəbələ Meşə Mühafizəsi və Bərpası Müəssisəsinin (MMBM) Bum meşəbəyliyinin 2 saylı dolayında, 29 avqust 2017-ci il tarixində səhər saat 8 radələrində isə Oğuz MMBM-in Xaçmaz meşəbəyliyinin 3 saylı dolayında yanğın hadisələri baş verib.

Yanğın baş vermiş ərazilərə dərhal Ekologiya və Təbii Sərvətlər və Fövqəladə Hallar nazirliklərinin əməkdaşları cəlb olunub.

Bum meşəbəyliyində baş verən yanğının əhatə etdiyi ərazi hündür və sərt yamaclıqdan ibarət olduğundan yanğınsöndürən maşınların əraziyə qalxması mümkün olmayıb. Əsasən əl əməyindən və FHN-nin helikopterindən istifadə edilməklə həyata keçirilən intensiv tədbirlər nəticəsində yanğın 29 avqust 2017-ci il tarixində saat 15 radələrində lokallaşdırılıb. İlkin hesablamalara görə, yanğın nəticəsində 10 hektar yaxın ərazidə quru ot və kol örtüyü yanıb. Hazırda yanğının tam söndürülməsi istiqamətində işlər davam etdirilir.

Oğuz MMBM-in Xaçmaz meşəbəyliyində baş vermiş yanğın isə saat 14 radələrində tam söndürülüb. Yanğın nəticəsində 0.5 hektar ərazidə quru ot və kol örtüyü yanıb.

Yanğınların hansı səbəbdən baş verməsi və dəymiş ziyanın həcminin müəyyən olunması məqsədilə araşdırma aparılır.

Havaların isti və quraq keçməsi ilə əlaqədar ETSN əhalini təbiət qoynunda olarkən odla ehtiyatlı olmağa, yanğın təhlükəsizliyi qaydalarına riayət etməyə çağırır".



# Bu gün də hava isti olacaq

**Avqustun 30-da Bakı və Abşeron yarımadasında hava ğmursuz keçəcək. Mülayim şimal-qərb küləyi əsəcək. ETSN-dən APA-ya verilən məlumata görə, havanın temperaturunun gecə 22-25° isti, gündüz 30-35° isti, Bakıda gecə 23-25°, gündüz 33-35° isti olacağı gözlənilir.**

Atmosfer təzyiqi normadan aşağı 757 mm civə sütunu təşkil edəcək.

Nisbi rütubət gecə 75-85 %, gündüz 45-55 % olacaq.

Abşeron çimərliklərində dəniz suyunun temperaturu Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəhdə 24-25°, Zağulba, Buzovna, Mərdəkan, Şüvəlanda 25-26°, Türkan, Hövsan, Sahil, Şıxda 26-27° isti təşkil edəcək.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin günün birinci yarısında bəzi dağlıq rayonlarda şimşək çaxacağı, yağış yağacağı ehtimalı var. Şərq küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturunun gecə 19-24°, gündüz 33-38° isti, dağlarda gecə 14-19°, gündüz 23-28° isti olacağı gözlənilir.

# "Siyasi partiyalar haqqında" Qanuna hansı dəyişiklik edilir?

**Bir müddət əvvəl "Siyasi partiyalar haqqında" Qanuna əlavə də dəyişikliklərin edilməsi gündəmə gəlmişdi. Belə ki, siyasi partiyanın maliyyələşməsi, fəaliyyətinə xitamla bağlı maddələrdə düzəlişlər ediləcəkdi.**

Yaxın zamanlarda "Siyasi partiyalar haqqında" qanuna əlavə də dəyişikliklərin edilməsi gözlənilirmi?

Məsələ ilə əlaqədar Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin üzvü Fazil Mustafa modern.az-a açıqlama verib.

Deputat bildirib ki, "Siyasi partiyalar haqqında" Qanuna əlavə və dəyişikliklərin edilməsini zəruri edən ciddi bir məsələ yoxdur.

"Qanuna ediləcək dəyişikliklə əsasən, partiyaların maliyyə hesabatlılığı ilə bağlı məsələlərin ciddiləşdirilməsindən söhbət gedirdi. Amma indiki vəziyyətdə partiyaların fəaliyyətinə ciddi təsir göstərəcək dəyişiklik baş verməyib. Hazırda partiyalar normal fəaliyyətini davam etdirir. Ona görə də "Siyasi partiyalar haqqında" Qanuna əlavə və dəyişikliklərin edilməsinə ehtiyac yoxdur".

# Ermənistanda nazir müavini işdən çıxarıldı

**Ermənistanda daha bir nazir müavini vəzifəsindən azad edilib. Ermənistan KİV xəbər verir ki, baş nazir Karen Karapetyanın qərarına əsasən, Haykaram Mxitaryan Ermənistanın fövqəladə hallar nazirinin müavini vəzifəsindən kənarlaşdırılıb.**

Karapetyanın digər qərarı ilə Ara Nazaryan bu vəzifəyə təyin edilib.

Xatırladaq ki, Serj Sarkisyanın sərəncamı ilə dünən Ara Nazaryan Ermənistanın müdafiə nazirinin müavini vəzifəsindən azad edilib.

# Gələn il müəllimlərin işə qəbulu ilə bağlı yeni qaydalar hazırlanacaq

**Gələn il müəllimlərin işə qəbulu ilə bağlı yeni qaydalar hazırlanacaq.**

APA-nın xəbərinə görə, Təhsil Nazirliyinin İnsan resursları şöbəsinin müdir müavini Eşqi Bağırov bildirib ki, bəzi məsələlər daha da təkmilləşməlidir. Onun sözlərinə görə, yeni qaydaların hazırlanması zamanı həmin məsələlər nəzərə alınacaq.

Nazirlik rəsmisi qeyd edib ki, bu il müəllimlərin işə qəbulu üzrə müsabiqədə iştirak etmək üçün 50 minə yaxın namizəd qeydiyyatdan keçib: "Onlardan 40 minə yaxını müsabiqənin test mərhələsində iştirak edib. Bu mərhələdən keçənlər növbəti mərhələdə vakansiya seçimi və müsahibə mərhələlərində iştirak edib. Müsahibə mərhələsində 400-ə yaxın namizəd uğur qazana bilməyib. Ümumilikdə, müəllimlərin işə qəbulu üzrə müsabiqədə iştirak edən 4 minə yaxın namizəd müəllim adını qazanıb".

E. Bağırov qeyd edib ki, əvvəlki illərdə müəllimlərin işə qəbul müsabiqəsindən uğurla keçənlər təqvim ilinin sonunda diaqnostik qiymətləndirməyə cəlb olunurdu və növbəti ildən onların əmək haqları artırılırdı: "Artıq prezidentin sərəncamına əsasən, müəllimlərin işə qəbulu müsabiqəsindən keçən namizədlər diaqnostik qiymətləndirməsi aparılan namizədlərə bərabər tutulur. Növbəti təqvim ilində işə qəbulu müsabiqəsindən keçərək təyinat alan müəllimlər artımla əmək haqqı alacaqlar".

# ABŞ-da yaşayan azərbaycanlılara xəbərdarlıq

**ABŞ-ın Texas ştatında "Harvi" qasırğası ilə əlaqədar yaranmış fövqəladə vəziyyətlə bağlı Azərbaycan Respublikasının ABŞ-dakı səfirliyində "Qaynar xətt" yaradılıb.**

Virtualaz.org səfirliyə istinadən xəbər verir ki, ehtiyac olacağı təqdirdə Azərbaycan vətəndaşları +12028200987 nömrəsi və ya consul@azembassy.us elektron poçtu ilə əlaqə saxlaya bilərlər.

Həmçinin təbii fəlakətlə əlaqədar olaraq, vətəndaşlara ABŞ-ın bu bölgəsinə səfər etməmələri, yerli dövlət qurumlarının təlimatlarına riayət və fövqəladə hallarda ABŞ Sahil Mühafizəsinə müraciət etmələri tövsiyə olunub.

YENİ MÜSAVAT
N 180 (6794) 30 avqust 2017

# Trampla bağlı hotel qalmaqalı və Ziya Məmmədovun "barmağı"

**Donald Trampın 2015 və 2016-cı illərdə prezident kampaniyası ilə eyni vaxtda onun "Trump Organization" şirkəti Moskvada "Trump Tower" (Trump Qülləsi) tikmək barədə danışıqlar aparırdı. Bunu Trampın vəkili Konqresdəki təhqiqatçılara məktubunda yazıb və bu haqda avqustun 28-də ABŞ mediası xəbər yayıb. (istiqlal.az).**



## Donald Trampın şirkətinin prezident kampaniyası ilə eyni vaxtda Moskvada "Trump Tower" tikmək barədə danışıqlar apardığı üzə çıxıb; sabiq nəqliyyat naziri Kremlə vasitəçi ola bilərdimi?

O zaman "Trump Organization"ın baş müşaviri olmuş Maykl Koen Nümayəndələr Palatasının Kəşfiyyat Komitəsinə iki səhifəlik bəyanatında yazıb ki, həmin sövdələşmə "niyyət məktubu" səviyyəsinə çatıb, ancaq bir sıra biznes səbəbləri ucbatından sona çatdırılmayıb. "The Associated Press", "The New York Times", "ABC News" və digər media qurumları bu bəyanatın surətini əldə etdiklərini bildiriblər.

Medianın yazdığına görə, Koen deyib ki, Moskvadakı "Trump Tower" razılaşmasının Trampın prezidentlik kampaniyasına dəxli olmayıb. Ancaq o, şəxsən bu barədə Trampa "üç halda" danışdığını bildirib. 2015-ci ilin oktyabrında Tramp hotel kompleksinin tikilməsi ilə bağlı niyyət məktubunu imzalayıb.

Maykl Koen Rusiya prezidenti Vladimir Putinin sözçüsü Dmitri Peskova elektron məktubda yazdığını deyib, ondan razılaşmaya kömək istəyib. Bu məsləhəti isə ona Kremllə dərin əlaqələri olduğunu iddia edən Felix Sater verib. Felix Sater rusiyalı kriminal avtoritetin oğludur, iki dəfə həbs olunub və Amerikadakı "rus mafiyası"nın adamı hesab edilir.

Moskvada "Trump Tower" tikintisi ilə bağlı niyyət məktubunun imzalanması haqda ilk dəfə avqustun 27-də "The Washington Post" qəzeti yazmışdı. lThe New York Times» isə avqustun 28-də Feliks Sater barədə məlumat yayıb. Qəzetin iddiasına görə, o, bir elektron məktubda lovğalanıbmış ki, daşınmaz əmlak sövdələşməsi Trampın seçilməyinə kömək edə bilər.

**"Bizim oğlan ABŞ-ın prezidenti ola, bunu təşkil edə bilərik. Putinin bütün komandasının buna razılığını alacağam, bu prosesi idarə edəcəyəm"** - o, Koenə məktubunda yazıb.



Ziya Məmmədov



Donald Tramp

Bildirilir ki, "Trump Tower" razılaşmasının maliyyələşdirilməsinə dair "VTB Bank"la razılığa gəlib. Həmin bank Moskvanın Ukraynaya təcavüzünə görə ABŞ sanksiyalarına məruz qalıb. Moskvada hətta lentkəsmə mərasimi də nəzərdə tuturmuş: **"Putini bu proqrama cəlb edəcəyəm, biz Donaldı seçdirəcəyik"** deyə, iddialar da varmış.

"Trump Organization" şirkətinin Moskvada «Trump Tower» tikdirmək niyyəti Bakıda hələ də bağlı qalan keçmiş "Trump Tower Baku"nın taleyini də yada salır.

2014-cü ildə D.Tramp bəyan etmişdi ki, "Trump İnternational Hotel & Tower Baku" "Trump Organization"un standartlarını daşıyan ən yaxşı qlobal inkişaf layihələrindən biridir. D.Trampın adını daşıyan binaların çoxu kimi Bakıdakı hotel də ona məxsus deyildi. Bina Ziya Məmmədovun oğlunun nəzarət etdiyi "Garant Holding" tərəfindən tikilmişdi və hazırda da onun şirkətinə məxsusdur. Lakin sirr deyil ki, Tramp adının bu oteldə istifadə edilməsinə və layihə ilə bağlı təcrübəsinə görə sərfəli komissiyon qazanmışdı. ABŞ prezidentliyinə iddiaçı olanda açıqladığı maliyyə hesabatına əsasən, Donald Tramp ən azından Məmmədovlardan 2,5 milyon dollar alıb. Çünki hotelin Trampın dəbdəbəli hotellər zəncirinin bir hissəsi kimi idarə olunması nəzərdə tutulurdu. Donald Tramp prezident seçkisi kampaniyası dövründə Azərbaycandakı biznes sazişindən çıxdığını elan etdi. Bakıda tikilmiş göydələndən "Trump" lövhəsi çıxarıldı.

Tramp prezident seçiləndən sonra isə amerikalı senatorlar "Trump Organization" təşkilatının "Trump Tower" göydələninin hansı hesabdan tikilməsinin araşdırılmasını istədilər. ABŞ mətbuatında da bu haqda yazılar dərc olundu.

2017-ci ilin martında "New Yorker" jurnalında dərc edilmiş "Donald Trampın ən pis sazişi" adlı təhqiqat məqaləsində "Tramp Organization" təşkilatının Ziya Məmmədovun ailəsi ilə müştərək tikdiyi "Tramp Tower" göydələni haqda yazmışdı.

Məmmədovların Rusiyada Trampın bu projesinin lehinə hansı iş apara biləcəkləri barədə fikir bildirmək çətindir. Amma sirr deyil ki, Məmmədovlar Tramp prezident olmamışdan əvvəl bu şərikliyi özlərinə şərəf bilirdilər və az qala hər yerdə bunu gözə soxmağa da çalışırdılar. Həmçinin Məmmədovlar baş nazirin hakimiyyətə düşmən kəsilmiş keçmiş birinci müavini Abbas Abbasovla dostluq edir, Rusiya prezidenti Vladimir Putinə birbaşa çıxış imkanları axtarmaları yeni xəbərlər deyil. Onların Moskvada indi üzə çıxan qalmaqalda hər hansı "barmaqları" varsa, ABŞ mediası bunu da yəqin üzə çıxaracaq.

❑ "YM"

# Müxalifətin Elçibəy nisgili - indi onun kimisi niyə yoxdur...



**"Meydan hərəkatından çıxan liderlərin hamısı etibardan düşüblər". AĞ Partiya başqanı Tural Abbaslının mətbuata açıqlamasında səsləndirdiyi bu fikirlər kifayət qədər ciddi ittihamdır. Onu haqlı sayanlarla yanaşı, bu fikirləri tənqid edənlər də az olmayıb. Əbülfəz Elçibəydən sonra müxalifət düşərgəsində birləşdirici bir liderin olmamasından danışan Tural Abbaslı isə bildirib ki, həm liderliyə iddialıların şəxsi keyfiyyətləri imkan vermədi, həm də digər müxalifət təmsilçilərinin eqo və ambisiyaları mane oldu. O, müxalifətin uğursuzluğunun səbəbini onların yeniliklərə açıq olmamasında, öz daxilində heç bir islahat aparmaq istəməməsində görüb.**

Bəs görəsən, meydan hərəkatında öndə olmuş müxalifət liderləri Tural Abbaslının bu fikirləri ilə bağlı nə düşünürlər? "Yeni Müsavat" bu mövzuda bir neçə müxalifət liderindən mövqe öyrənib.



**Mirmahmud Mirəlioğlu:** "Elçibəyin zamanında yaşayan hazırki müxalifət liderləri hər zaman ona uduzacaqlar"



**Sabir Rüstəmxanlı:** "Elçibəyi hərəkat yaratmışdı, AXC də onu lider seçmişdi"



**İqbal Ağazadə:** "İndiki situasiya fərqlidir, bu gün 1988-ci il deyil ki, millət hazır olsun, çağırışlara cavab versin"

**KXCP sədri Mirmahmud Mirəlioğlu** sualımıza cavabında bildirdi ki, hazırkı müxalifət liderləri bir sıra səbəbdən Elçibəyə uduzurlar: "Elçibəyə münasibət bildirənlər sırasında mən də olmuşam və sözümü demişəm. Tural Abbaslının dediklərində xeyli reallıqlar , faktlar var. Hələ demədikləri də var. O, vəziyyəti bütövlükdə əhatə etməyib. Bu çox ciddi məsələdir. Nə qədər ki, Azərbaycanda siyasət var, siyasətçilər var, Elçibəydən danışacaqlar, onun yeri də həmin zamanda boş görünəcək. Sağlığında Elçibəyi qəbul etməyən bu insanların bu gün Elçibəyçi olublar. Bu o deməkdir ki, Elçibəyin yeri görünür. Elçibəy özü bir dəyərdir və hər zaman insanlara lazım olacaq. Onun zamanında yaşayan hazırkı müxalifət liderləri hər zaman ona uduzacaqlar. Həmçinin sevgi, etimad, rəğbət, nüfuz məsələsi nisbi məsələdir. Siyasətçi elə bir hərəkət edər ki, bir anda qəhrəman olar. Bunlar siyasi ab-havaya bağlı məsələlərdir. Xalq bu məsələləri artıq zamana buraxıb, biganədir".

**VHP sədri Sabir Rüstəmxanlı isə vurğuladı ki, o dövrlə indiki dövrü müqayisə etmək və buna əsasən liderlər haqqında fikir yürütmək doğru deyil:** "Tural gənc siyasətçidir, müəyyən iddiaları var. Gündəmə gəlmək, diqqəti cəlb etmək üçün belə sözlər deyir. Buna çox da təəccüblü baxmaq lazım deyil. Onun şəxsi fikri belədir, qoy danışsın. Bu, məni qıcıqlandırmır. Müxalifət liderinin etimadı itirməsinə gəlincə, vəziyyət və şərait əvvəlkindən fərqlidir. Əbülfəz Elçibəyin dövrü ayrı idi. Elçibəy dönəmində xalq hərəkatı bir yerdə idi, AXC vahid təşkilat idi. Vahid təşkilat da özünə lider olaraq Elçibəyi seçmişdi. Elçibəy Cəbhəni yaratmamışdı, hərəkat Elçibəyi yaratmışdı. Cəbhə onu özünə lider seçəndən sonra onun ardınca gedirdi, ona inanırdı və bu mənada birlik var idi. Cəbhənin istəyi ilə Elçibəy hakimiyyətə gəldi, o zaman indiki şərait də yox idi, ayrı-seçkilik də... İndi onlarla siyasi partiya var, təbii ki, heç kim heç kimə güzəşt etmək istəmir. Ona görə də bu günlə o günü müqayisə etmək mümkün deyil".

**Ümid Partiyasının sədri İqbal Ağazadə də Elçibəy dövrü ilə müqayisədə zaman və şəraitin fərqli olduğunu, bu məsələdə fərdlərin günahlandırılmasının doğru olmadığını söylədi:** "Mən hər kəsin fikrinə hörmət bəsləyirəm. Hesab edirəm ki, insanlar düşündüklərini, öz pəncərələrindən gördüklərini deyə bilərlər. Tural Abbaslı da bu cür düşünür. Hər bir siyasətçinin ortaya çıxması üçün şərait lazımdır, o şərait olmadıqda sonra necə siyasətçi olursan ol, bu mümkün deyil. İndiki situasiya fərqlidir, bu gün 1988-ci il deyil ki, millət hazır olsun, çağırışlara cavab versin. Zaman elə yerə gəlib çıxıb ki, indi passivlik dönəmidir. Hər zaman tarixdə belə dövrlər olub. O baxımdan, fərdləri günahlandırmaq doğru deyil. Dünyada gedən proseslərə, indiki dövrdəki münasibətlərə də diqqət yetirmək lazımdır. O zaman Azərbaycan Avropa Şurasına daxil olmaq üçün çaba göstərirdi. Bu, Azərbaycan üçün çox cəlbedici idi və üzərinə qoyulan öhdəlikləri yerinə yetirməyə çalışırdı, Qərblə münasibətləri də fərqli şəkildə qururdu. Bu gün Avropa Şurası faktiki olaraq iflic vəziyyətindədir və proseslərə təsir edə bilmir. Verdiyi bəyanatlar və qəbul etdiyi qərarlar da yerinə yetirilmir. Dünyanın Azərbaycana, Azərbaycanın isə dünyadakı proseslərə münasibətinin dəyişdiyi bir vaxtda necə fərdləri ittiham etmək olar. Və ya Yaxın Şərqdəki münasibətlər 10-15 il öncə hansı səviyyədə idi, indi hansı səviyyədədir. Ona görə də bu məsələdə fərdləri ittiham etmək üçün ictimai -siyasi prosesləri, zamanı, şəraiti düzgün qiymətləndirmək lazımdır. Belə bir sual yarana bilər ki, 1988-ci ilin liderləri niyə 1987-ci ildə yox idi? O zaman da həmin insanlar və həmin xalq idi, cəmi bir il fərq var idi. Niyə 1987-ci ildə və ya 70-ci illərdə həmin proseslər olmadı? Deməli, zamanın və şəraitin də fərqi var".

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 180 (6794) 30 avqust 2017

# Vəkili Cahangir Hacıyevin durumu haqda: "Burnu qanayır, yıxılır..."

## Aqil Layıcov sabiq bankirin qızı ilə Eldar Mahmudovun oğlunun boşanması xəbərlərindən danışdı

**Beynəlxalq Bankın sabiq sədri Cahangir Hacıyevin sağlıq durumu haqda ziddiyyətli məlumatlar yayılmaqdadır. Ölkənin ən böyük bankına uzun illər rəhbərlik etmiş, həmin bankın 180 milyonluq səhminə sahib Cahangir Hacıyev bu gün Azərbaycanın ən ağır saxlama şəraiti olan müəssisəsində dustaq həyatı yaşayır. Hoşimoto diaqnozu qoyulan sabiq bankirin sağlıq durumu və digər məsələlərlə bağlı vəkili Aqil Layıcovla söhbətləşdik.**



- Cahangir Hacıyevin saxlandığı 13 saylı cəzaçəkmə müəssisəsində durum çox bərbaddır, kritikdir. Onun səhhətində ciddi problemlər var. Cahangir Hacıyev dəfələrlə sıra baxışına çıxarkən yerə yıxılıb, burnundan qan açılıb. Orada durum çox pisdir. O müəssisədə əsaslı müalicə və reablitasiya üçün şərait yoxdur. Bundan başqa, Cahangir Hacıyevin bir çox hüquqları pozulur. Ona kitab və mətbu orqanların verilməsi qadağan olunub. Bununla bağlı biz ombudsmana, digər orqanlara müraciət etmişik.

***- Həmin kitablar və mətbu orqanların Azərbaycanda dövriyyəsi qadağandır?***

- Əlbəttə ki, yox. Sadəcə, Cahangir Hacıyevi daha çox sıxışdırırlar. Mümkündür ki, bu, rəisin iradəsini əks etdirmir. Ola bilər ki, nazirlik səviyyəsində göstəriş verilib, kitabların, mətbu orqanların Cahangir Hacıyevə verilməsi qadağan olunub.

***- Cahangir Hacıyev ona olan təzyiqlərin nədən qaynaqlandığı haqda nə deyir?***

- Düşünür ki, onu mümkün qədər blokadada saxlamaqla, həbs cəzasından sonra belə cəzalandırmaqla guya ki, onun nələri varmış, yəni guya dövlətin pullarını offşorlarda gizlədibmiş, sanki bu yolla həmin pulları üzə çıxarmağa çalışırlar. Hansı ki, neçə ildir ki, bu haqda hər hansı bir sübutları yoxdur. Əllərində hər hansı bir sənəd yoxdur.

***- Dediniz ki, Cahangir Hacıyev səhərlər sıra baxışına çıxarılarkən bir neçə dəfə yıxılıb. Belə hallarda ona yardım göstərilib?***

- Bu, dəfələrlə baş verib. Cahangir Hacıyev yıxılıb. Elə olub ki, onunla görüşə getmişəm, amma səhhəti imkan verməyib ki, görüşək. Orada müəssisə ikiqat yüklənib. Yəni min nəfərlik yerdə 2 min nəfəri saxlayırlar. Orada hər 100 dustağa 1 tualet düşür. Tualetə görə gün ərzində növbə olur. Həmin müəssisə Avropa Şurasının, BMT-nin İşgəncələr Əleyhinə komitələrinin rəylərində dustaqların saxlanması üçün yararsız müəssisə kimi qiymətləndirilib. Sovet dövründə müəssisənin yaxınlığındakı dağlıq ərazidə radioaktiv tullantılar basdırılıb. Həmin tullantıların şüalanması bu gün də davam edir və məhbusların əynindəki paltarlar həmin şüaların təsiri altında qırmızıya çalan rəng alır.

***- Cahangir Hacıyevdən rəsmi və qeyri-rəsmi nə qədər pul tələb olunur?***

- Qeyri-rəsmi pul tələbi haqda nəsə deyə bilmərəm. Belə bir tələbin olduğuna da inanmıram. Ümumilikdə isə iş üzrə 60 milyondan artıq pul ödənməsi nəzərdə tutulur.

***- Cahangir Hacıyevin həbsindən sonra onun həyat yoldaşının ölkədən getməsi haqda xəbərlər yayılmışdı. İndi isə belə xəbərlər yayılıb ki, onun qızı ilə sabiq milli təhlükəsizlik nazirinin oğlu boşanıblar. Bu məlumat nə dərəcədə doğrudur?***

- Bu haqda məlumatsızam. Cahangir Hacıyevin həyat yoldaşı ilə bağlı cinayət işi qalır. Onun həyat yoldaşını Azərbaycana ekstradisiya etməyə cəhdlər oldu. Çox primitiv səhvlərə yol verdilər. Təsəvvür edin ki, Cahangir Hacıyevin, onun həyat yoldaşının vəkilinin olduğunu bilə-bilə həbs-qətimkan tədbiri ilə bağlı gizli məhkəmə keçirirlər. Hansı ki, şəxs öz seçdiyi vəkillə təmsil oluna bilər. Bu, qanunda təsbit olunub. Burada belə hallar keçir. Lakin ədalətin hökm sürdüyü ölkələrdə belə hallar böyük qüsur hesab olunur və ədalət məhkəməsində kölgə salan hal kimi qiymətləndirilir. Bu gün Cahangir Hacıyevin, onun ailə üzvlərinin adi mülki hüquqları məhdudlaşdırılıb. Bu gün Hacıyevlər adi notariat hərəkətləri apara bilmirlər. Ölkədən Cahangir Hacıyevin yaxınlarının, hətta sürücüsü və aşpazının da çıxmasına məhdudiyyət qoyulub. Bütün bu işlər onu göstərir ki, Cahangir Hacıyevə qarşı xüsusi qərəz var.

***- Cahangir Hacıyevə yaxınları ilə görüşməyə icazə verilirmi?***

- Görüşlə bağlı müəyyən problemlər vardı. Hazırda vəziyyət nə yerdədir, bunu dəqiq deyə bilmərəm.

***- Cahangir Hacıyevin qudası Eldar Mahmudov həbsdə deyil. O, ötən müddət ərzində Cahangir Hacıyevlə görüşübmü, onunla görüşməyə cəhd edibmi?***

- Yox, qətiyyən belə bir şey yoxdur. Bildiyim qədər belə bir görüş üçün cəhd olmayıb. Olsaydı, bəlkə də mənim xəbərim olmaya bilərdi. Kiminsə həbsdə olan qohumu ilə görüşə getməsi özünün daxili istəyidir. Belə bir istək, istəyin gerçəkləşdirilməsi üçün cəhd olub-olmayıb bunu deyə bilmərəm.

***- Açıqlamalarınızdan birində demişdiz ki, Cahangir Hacıyev cəzasını evinə yaxın cəzaçəkmə müəssisəsində çəkməlidir. Fakt budur ki, müvəkkilinizi evindən ən uzaq bir müəssisəyə köçürüblər. Bu məsələ ilə bağlı məhkəmə davası açmısınız?***

- Cahangir Hacıyev həbsinə qədər Mərdəkan qəsəbəsində yaşayıb, orada qeydiyyatdadır. CİM-ə uyğun olaraq şəxs mümkün dərəcədə evinə yaxın müəssisədə saxlanılmalıdır. Onu ilkin olaraq 10 saylı cəzaçəkmə müəssisəsinə aparmışdılar. Sonradan kiminsə tapşırığı ilə onun yerini dəyişiblər. Özü mənə demişdi ki, onu Bakı İstintaq Təcridxanasından 10 saylı cəzaçəkmə müəssisəsinə köçürmək adı ilə çıxarıblar. Ora aparıb



3-4 saat saxlayıblar. Sonra isə onu dustaqların saxlanması üçün yararsız hesab edilən müəssisəyə aparıblar. 13 saylı cəzaçəkmə müəssisəsi cəzanın içində cəza yeridir. Penitensiar Xidmət əməkdaşlarından kimsə intizam məsuliyyətinə cəlb edilirsə, qaydaları pozursa, onu cəzalandırmaq üçün 13 saylıya xidmətə yollayırlar. Ora Renitensiar Xidmət əməkdaşları üçün cərimə batalyonudursa, görün dustaqların vəziyyəti nə yerdədir.

***- Cahangir Hacıyevin orada başına bir iş gəlsə, bunun günahı kimin üzərində qalacaq?***

- Dövlətin, dövlətin səlahiyyət verdiyi şəxslərin üzərində qalacaq. Biz dəfələrlə ombudsmanlığa, Qırmızı Xaça müraciət etmişik. Ombudsmanlıq, sadəcə, kargüzarlıqla məşğuldur. Yazdığımız müraciətləri yönləndirməklə məşğuldurlar, bir dəfə də olsa gedib Cahangir Hacıyevə baş çəkməyiblər. Məndə olan məlumata görə, ombudsmanlığın nümayəndələri müəssisəyə gedəndə belə orada türmə administrasiyasının binasını tərk etmirlər, müəssisənin ərazisini gəzmirlər. Dustaqları qəbul belə etməyib elə oradan da çıxıb gedirlər. Biz oradakı durum, Cahangir Hacıyevin vəziyyəti haqda dövlətə məlumat vermişiksə, əlbəttə ki, baş verə biləcək hallara görə dövlət məsuliyyət daşıyır. Cahangir Hacıyev havasızlıqdan əziyyət çəkir. Bu onun ürəyindəki problemi dərinləşdirir.

***- Azərbaycan cəzaçəkmə müəssisələrində adına "burjuy" kamerası deyilən, imkanlı məhbusların saxlandığı kameraların varlığı kimsəyə sirr deyil. 13 saylıda necə, "burjuy" kameraları var?***

- 13 saylı cəzaçəkmə müəssisəsi cəzaya məhkum edilmiş şəxslərin 2 qat cəzalandırılması yeridir. Orada xüsusi imtiyazlı məhkumlar yoxdur. "Burjuy" kameraları orada yoxdur. Ora faktiki olaraq qeyri-insani şəraitin olduğu bir yerdir. Elementar yaşıllıq yoxdur, ətrafdakı daş karxanalarından qalxan toz-tozanaq müəssisədə nəfəs almanı belə çətinləşdirir. Vəkil otağında hər 5 dəqiqədən bir stolun üstünü silirik ki, toz olmasın. Radiasiyalı tullantılardan ayrılan şüa və Lökbatanının kanalizasiya sularının töküldüyü göldən gələn üfunət iyi də dözülməz həddədir.

***- Müvəkkiliniz barəsində çıxarılan məhkəmə hökmü ilə bağlı Ali Məhkəməyə, Avropa Məhkəməsinə müraciət edəcəkmi?***

- Ali Məhkəməyə hökmdən şikayət verilib. Hələlik işə baxılma vaxtı təyin olunmayıb. Avropa Məhkəməsinə bu günə qədər 4 müraciətimiz olub. Müraciətlərimiz Cahangir Hacıyevin barəsində seçilmiş həbs-qətimkan tədbirinin əsassızlığı, 10 gün nəzərdə tutulduğu halda 30 gündən artıq polisin istintaq təcridxanasında saxlanılması, bacısının ölkədən çıxışına məhdudiyyətin qoyulması qərarının əsassızlığı və həyat yoldaşının məhkəmədə müdafiə hüquqlarının pozulması ilə əlaqədardır. Bir müraciətimiz də təqsirsizlik prezumpsiyasının pozulması ilə bağlı olacaq.

**Qeyd edək ki, C.Hacıyev 15 il müddətinə azadlıqdan məhrum edilib.**

❑ **E.MƏMMƏDƏLİYEV**

## Salyanda və Lənkəranda dəhşətli intihar

Salyanda intihar hadisəsi baş verib. "Report"un xəbərinə görə, hadisə rayonun Xocalı kəndində qeydə alınıb.

Kənd sakini, 33 yaşlı Amid Mirhabil oğlu Həsənov həyətyanı sahədəki tikilidə özünü asaraq öldürüb. İntiharın səbəbi hələlik məlum deyil.

Faktla bağlı araşdırma aparılır.

Lənkəranda isə qadın özünü qatarın altına ataraq, intihara cəhd edib.

APA-nın cənub bürosunun verdiyi məlumata görə, rayonun Velədi kəndində Lənkəran şəhər səhər sakini, 1991-ci il təvəllüdlü Aidə Cəlil qızı Əlizadə özünü öldürmək istəyib. Özünü qatarın altına atan qadın ağır xəsarət alıb. O, bir ayağını itirib. A. Əlizadə Lənkəran rayon Mərkəzi Xəstəxanasına çatdırılıb, əməliyyat edilib.

YENİ MÜSAVAT
N 180 (6794) 30 avqust 2017

**Sentyabrda Gürcüstan daha bir beynəlxalq səviyyəli hərbi təlimlərə ev sahibliyi edəcək. Musavat.com gürcü mediasına istinadən xəbər verir ki, 3-11 sentyabrda baş tutacaq çoxmillətli hərbi təlimlər "Agile Spirit 2017" adlanır. Hərbi təlimlərin Axaltsikdəki Orfolo poliqonunda və leytenant Şota Xurtsidze adına tank mərkəzində keçirilməsi nəzərdə tutulur.**




# Gürcüstanda növbəti NATO hərbi təlimləri, yenə Ermənistan...

## Azərbaycanın hərbi təlimlərdə iştirak etməməsi barədə suallara XİN-dən reaksiya gəldi; **Hikmət Hacıyev:** "Orada iştirak barəsində qərarlar da 2-3 il əvvəl keçirilən ilkin planlaşdırma konfranslarında verilir"

Gürcüstanın Müdafiə Nazirliyi məlumatı təsdiqləyərək bildirib ki, təlimlərin təşkilatçıları Gürcüstanın silahlı qüvvələri və ABŞ-ın dəniz piyadalarıdır. Təlimlərin səhra və qərargah mərhələsi olacaq, burada stabillik yaratma əməliyyatı, hücum və müdafiə ssenariləri həyata keçiriləcək. NATO ilə əməkdaşlığı nəzərdə tutan təlimlərdə alyansın üzv və tərəfdaş ölkələri, o cümlədən Gürcüstan, ABŞ, Bolqarıstan, Latviya, Rumıniya, Ukrayna və Ermənistan iştirak edəcək.

Diqqətçəkən məsələ Azərbaycanın artıq NATO-nun üçüncü hərbi təlimlərində iştirak etməməsinə rəğmən, Rusiyanın forpostu olan Ermənistanın bu təlimlərə qatılmasıdır.

**Politoloq Şahin Cəfərli bununla bağlı özünün sosial şəbəkədəki səhifəsində fikirlərini bölüşüb:** "Gürcüstanda növbəti NATO təlimləri... Yenə Ermənistan var, Azərbaycan yoxdur. "Bu təlimlərə qatılmaqla nə əldə edilir ki" deməyin. Bu təlimlər NATO-ya, onun standartlarına uyğunlaşmaq, böyük mənada isə müasir dünyaya açılmaq deməkdir. Təkcə hərbi yox, siyasi mahiyyəti var. Zatən NATO özü də sadəcə hərbi deyil, həm də siyasi ittifaq və çağdaş dəyərlər ətrafında toplaşan dövlətlərin uğurlu birliyidir" - ekspert bildirib. **O qeyd edib ki, biz Ermənistanı və erməniləri ələ salmağa, aşağılamağa adət etmişik:** "Amma mən son zamanlar Ermənistanın siyasətində bir strateji ağıl, uzunmüddətli planlama sezirəm. Ermənilər axmaq deyil. Prosesləri izləyir və düşünürlər ki, təkcə Rusiyaya ümid bağlamaqla etibarlı və dayanıqlı gələcək qurmaq olmaz. Rusiyanın ayağının büdrəməsi və orta-uzun vədədə bu bölgədən çəkilməsi ehtimalına qarşı indidən alternativ yol hazırlayırlar ki, qəza anında hansı qapıdan çıxacaqlarını bilsinlər". **Xüsusilə də S.Sərkisyanın Soçidə president Putinlə görüşündən sonra Ermənistanın növbəti dəfə NATO təlimlərinə qatılması maraqlıdır. Ş.Cəfərlinin sözlərinə görə, şübhəsiz ki, Ermənistanın addımlarından Rusiyanın xəbəri var:** "Əminəm ki, Sərkisyan NATO təlimlərinə qatılacaqları barədə qabaqcadan Moskvaya məlumat verir. Rusiya təbii ki, istəsə buna imkan verməyə bilər, amma Ermənistanı aciz kölə kimi təqdim etməyin həqiqətə uyğun olmadığını düşünürəm, çünki onların da Rusiyaya qarşı özünüməxsus təzyiq vasitələri mövcuddur. Ölkədə antirusiya əhval-ruhiyyəsi son vaxtlar artmaqdadır və bəhs etdiyim həmin o "üst ağıl" şərait yaradır ki, bu əhval-ruhiyyənin təmsilçiləri İrəvanın mərkəzində kütləvi aksiyalarla özlərini ifadə etsinlər. Eyni zamanda Rusiyanın inteqrasiya proyektlərində iştirakın məqsədəuyğunluğu məsələsi də Ermənistan ictimaiyyəti, mediası tərəfindən açıq şəkildə sorğulanır, müxalifətə imkan verilir ki, Avrasiya İqtisadi İttifaqından çıxmaq barədə parlamentdə məsələ qaldırsın".

**Politoloqa görə, hələlik bəxtimiz onda gətirib ki, indiki Ermənistan erməni xalqının gerçək potensialı ilə tamamilə tərs mütənasib olan inkişaf səviyyəsinə malikdir:** "Qərbin və Latın Amerikasının biznes və elmi-intellektual çevrələrində xeyli sanballı erməni var, lakin Rusiya amili onların Ermənistana nüfuz etməsini əngəlləyir. Yəni Rusiya əslində Ermənistanı da bədbəxt edib və ermənilər bunu yaxşı anladıqları üçün gələcəyə hesablanmış alternativ yol xəritəsi hazırlamağa çalışırlar. Onların NATO təlimlərinə qatılmasına bu aspektdən baxmaq lazımdır. Azərbaycan isə yerində sayır, hətta reqres əlamətləri göstərir, müasir dünyadan özünütəcrid mənasına gələn addımlar atır. Bu yanlış yoldan bir an öncə dönmək gərəkdir, çünki çox vaxt itirmişik və itirməyə də davam edirik..."

**Məsələ ilə bağlı rəsmi Bakının münasibətini öyrəndik. XİN-in mətbuat katibi Hikmət Hacıyev Azərbaycanın bu təlimlərdə iştirak etməməsi barədə "Yeni Müsavat"a bildirdi ki, NATO-nun tərəfdaş ölkələrlə birgə keçirdiyi təlimlərə hazırlıq prosesi iki-üç il əvvəldən başlayır:** "Orada iştirak barəsində qərarlar da 2-3 il əvvəl keçirilən ilkin planlaşdırma konfranslarında verilir. Hazırda Azərbaycan NATO-nun başqa təlimlərində keçirilir, onlardan biri də Bolqarıstanda keçirilir. Ona görə də bu kimi təlimlərdə iştirak daha çox hərbi-texniki xarakter daşıyır, nəinki siyasi".

**Bakının NATO təlimlərinə qatılmamasını Rusiya amili ilə izah edən ekspertlərin şərhlərinə reaksiyasında H.Hacızadə bunları bildirdi:** "Azərbaycanın NATO ilə tərəfdaşıq münasibətləri qarşılıqlı faydalı əməkdaşlıq prosesi çərçivəsində, müstəqil şəkildə inkişaf edir".

**XİN rəsmisi İrəvanın bu təlimlərdə aktivlik göstərməsini geniş şərh etmək istəmədi:** "NATO-nun xətti ilə keçirilən təlimlərdə iştirak Ermənistanın öz qərarıdır".

❑ Cavìd TURAN

# Lapşinin ekstradisiyası ilə bağlı müəmma



**Bakı məhkəməsi tərəfindən 3 il müddətinə azadlıqdan məhrum edilmiş blogger Aleksandr Lapşinin İsrailə ekstradisiyası ilə bağlı məsələdə irəliləyiş yoxdur. Virtualaz.org xəbər verir ki, bunu "RİA Novosti"yə məhbusun vəkili Eduard Çernin deyib.**

"Bu məsələdə heç bir irəliləyiş yoxdur", - İsrailin Azərbaycan Ədliyyə Nazirliyinə onun müdafiə etdiyi şəxslə bağlı müraciət edib-etmədiyi ilə bağlı suala cavab olaraq Çernin bildirib.

# "Amnesty İnternational"dan Azərbaycana qarşı təxribat

## Rəsmi Bakı araşdırmalara başladı, Hikmət Hacıyev: "Bu şəxsin adı "arzuolunmaz şəxslər"in siyahısına daxil ediləcək"

**Son illər Azərbaycanla münasibətlərində problemlər yaranan və vaxtaşırı Bakıya ünvanlı tələblərlə çıxış edən "Amnesty İnternational" beynəlxalq hüquq müdafiə təşkilatı ölkəmizə qarşı həqarət edib. Belə ki, qurumun mətbu orqanı olan "Amnesty Press"in əməkdaşı qeyri-qanuni olaraq Azərbaycanın işğal altındakı ərazilərinə gəlib. Musavat.com bununla bağlı erməni mətbuatına istinadən məlumat verir ki, təmas xəttindəki Talış kəndinə qədər gəlib çıxan jurnalist geri dönəndən sonra xüsusi reportaj hazırlayıb.**

İzabella Rozenqrin adlı jurnalist işğal zonasındakı mülki əhali və separatçı rejimin təmsilçiləri ilə görüşdüyünü yazıb. Həmçinin o, Azərbaycan əsgərinin atəşindən qorunmaq üçün tikilən 3 metrlik beton divardan da bəhs edib.

Taliş kəndinin yaşlı sakini Vilem Petrosyan jurnalistə 2016-cı ilin aprel döyüşlərindəki təəssüratlarını bölüşüb. "Mən şokda idim, öz hisslərimi sözlə ifadə edə bilmirəm" - deyən erməni evlərini tərk etdikləri zaman göz yaşları içində boğulmasından bəhs edib, bununla da hiyləgərcəsinə Azərbaycan tərəfini günahkar çıxartmağa çalışıb.

Dağlıq Qarabağdakı separatçı rejimin "məsləhətçisi" Tiqran Abramyan isə deyib ki, Qarabağda "heç kəs müharibə istəmir". Ancaq ardınca o, Azərbaycanı "ermənifobiya"da günahlandırmağa cəhd göstərib, həmçinin Bakının müharibə istədiyini iddia edib.

Ermənilərin bu kimi iddiaları irəli sürməsi ilk deyil, sonuncu da olmayacaq. Diqqətçəkən "Amnesty İnternational"a yaxın jurnalistin işğal zonasına icazəsiz gəlməsidir. Normalda həmin jurnalist Ermənistan ordusunun atəşi altında yaşayan Azərbaycan əhalisi ilə də görüşməli, iki ay əvvəl qətlə yetirilən 2 yaşlı Zəhranın və nənəsinin məhz tülkü kimi göz yaşı tökən ermənilər tərəfindən öldürülməsindən yazmalı idi.

**Bəs rəsmi Bakı təşkilat təmsilçisinin qanunsuz səfərinə hansı reaksiyanı verəcək? Rəsmi etiraz olacaqmı?**

**XİN-in mətbuat katibi Hikmət Hacıyev musavat.com-a bildirdi ki, "Amnesty İnternational"ın dərgisində verilmiş yazı Azərbaycan işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin təşviqinə xidmət edir, birtərəfli xarakter daşıyır və obyektiv jurnalist prinsiplərindən kənardır:** "Elementar jurnalist etikası onu tələb edir ki, münaqişə məsələləri ilə əlaqədar olan materiallarda hər iki tərəfin mövqeyi işıqlandırılsın. Gördüyünüz kimi, bu yazıda yalnız birtərəfli qaydada Ermənistan tərəfinin təbliğatı aparılır". H.Hacıyev qeyd etdi ki, özlüyündə bu səfər də qeyri-qanuni xarakter daşıyır: Azərbaycan ərazisində xarici KİV nümayəndələrinin akkreditasiyasını nəzərdə tutan qaydaların, sərhəd haqqında qanunun və digər müvafiq sənədlərin pozulması ilə müşayiət olunur. Ümumiyyətlə, "Amnesty İnternational" təşkilatının Azərbaycana münasibəti, qərəzli mövqeyi hər kəsə bəllidir. İstisna deyil ki, daha dəqiq araşdırma aparılacaq və bu şəxsin adı "arzuolunmaz şəxslər"in siyahısına daxil ediləcək".

❑ E.PAŞASOY

YENİ MÜSAVAT
N 180 (6794) 30 avqust 2017

**Ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin sabiq rəhbəri Eldar Mahmudovun son günlərdə itirilmiş mövqelərini bərpa etməyə çalışması görüntüsünü yaradan hərəkətləri müşahidə olunmaqdadır. Sabunçu Rayon Məhkəməsində ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin həbsdə olan sabiq rəisi, general-mayor Akif Çovdarovun və digərlərinin cinayət işi üzrə məhkəmə prosesi sona çatmaq üzrədir.**

# Eldar Mahmudovun revanşı

## Sabiq nazir mövqelərini bərpa etməyə çalışır



Dövlət ittihamçısı Akif Çovdarovun rütbələrdən, fəxri adlardan, 3 il rəhbər vəzifələr tutmaq hüququndan məhrum edilməklə 15 il müddətinə azadlıqdan məhrum olunmasını istəyib. Prokuror digər təqsirləndirilənlər - Səlim Məmmədovun 12 il, Akif Əliyev və Orxan Osmanovun hər birinin isə 9 il müddətinə azadlıqdan məhrum edilmələrini istəyib.

Prokurorun təqsirləndirilən şəxslərə tələb etdiyi cəza ilə zərərçəkənlər razı deyillər. İş üzrə zərərçəkənlərdən Salman Səfərov A.Çovdarova qanunda nəzərdə tutulandan az cəza verildiyini, ona ömürlük cəza təyin olunmasını məhkəmə zalında tələb edib. Amma onun tələbini hakimlər sanki eşitməyiblər.

Eldar Mahmudovun vəzifədən çıxarılmasından 1 ay sonra həbs olunan əmisi oğlu İlham Mahmudovu isə məhkəmə zalından azadlığa buraxıblar. Nəsimi Rayon Məhkəməsində hakim Elman İsayevin sədrliyi ilə keçirilən proses avqustun 27-də baş tutub. "Azərtürkbank" ASC-nin Bakı filialının müdiri olmuş İ.Mahmudov suçlandığı əməllərdə təqsirli bilinsə də, həbsdə saxlandığı müddət yetərli sayılıb. O, cərimələnməklə həbsdən canını qurtarıb.

İ.Mahmudovun 2 qardaşından Vüqar Mahmudov əmisi oğlu nazir olanda, onun köməkçisi işləyib. Hazırda məhkəməsi davam edən MTN generallarının işində də onun adı dəfələrlə hallanıb. O biri qardaşı - İlqar Mahmudov isə Səbayel Rayon Polis İdarəsinin rəisi idi. MTN ətrafındakı məlum olaylardan az sonra vəzifəsindən çıxarıldı. İlqar Mahmudovun qardaşının həbsindən sonra öz ərizəsi ilə işdən çıxdığı bildirilir.

İlham Mahmudova qarşı ittihamlara gəlincə, o, "Azərtürkbank" ASC-nin Bakı filialının müdiri vəzifəsində işləyərkən vəzifə səlahiyyətlərindən sui-istifadə etməkdə və saxtakarlıqda suçlanır. CM-in 308 və 313-cü maddələri ilə təqsirli bilinən Mahmudov cəmi 8 ay bu vəzifədə işləyib - 2015-ci ilin martından noyabrına qədər.

Cinayət işinin materiallarında yazılıb ki, o, qardaşlarının və onların həyat yoldaşının adlarına hesablar açıb, ora pullar köçürüb. İlqar Mahmudovun adına olan hesaba 10 min dollar, həyat yoldaşı Fatma Mahmudovanın adına olan hesaba isə 45 min avro pul qoyulub və bankdan faiz alınıb. Digər qardaşı Vüqar Mahmudovun həyat yoldaşı Nuranə Mahmudovanın adına olan 5 hesaba 103 min manat köçürülüb. İ.Mahmudovun etibarnamələr əsasında həmin hesablar üzrə əməliyyatları idarə etdiyi bildirilir.

İttihamda yazılıb ki, N.Mahmudovanın adındakı başqa bir hesabda 1 milyon 500 min dollar pul olub. İ.Mahmudov qardaşının sürücüsü Nicat Məmmədovun adına hesab açıb. Qardaşının həyat yoldaşının hesabındakı pulu ora köçürüb, oradan da çıxarıb. Amma İ.Mahmudov özünü təqsirli bilmir və heç bir cinayət törətmədiyini deyir. O, barəsindəki hökmlə razı deyil və apelyasiya şikayəti verib.

Sabiq nazirin oğlu Anar Mahmudovun ailə biznesini genişləndirməsi xəbəri də avqustun əvvəlində yayılmışdı. Bildirilirdi ki, oğul Mahmudovun idarə etdiyi "Caspian Crystal" LLC şirkəti ilə Fransanın məşhur armanyak (konyakın bir növü, Fransanın Armanyak bölgəsində yetişdirilən xüsusi üzüm sortlarından hazırlanır) içkisi istehsal edən "Chateau de Bordeneuve" şirkəti müqavilə bağlayıb. Müqaviləyə əsasən bu şirkətin istehsal etdiyi armanyak Azərbaycanda "Caspian Crystal" şirkəti tərəfindən satılacaq.

"Caspian Crystal" Bakıda mənzillənən, 12 mərtəbəli plazaya, üç ticarət nöqtəsinə, iki şərab anbarına və güclü anbar-paylama şəbəkəsinə malik olan şirkətdir. "Chateaux Bordeneuve & Collections" şirkətinin kommersiya direktoru Jerom Kastedine bildirib ki, bu sövdələşmə nəticəsində "Collection Privee" və "Baron de Sigognac" markalı armanyak beynəlxalq arenada daha çox tanınacaq, prestij qazanacaq.

Fransız konyaklarının Azərbaycanda satışını təşkil etmək üçün müqavilə bağlayan "Caspian Crystal" şirkəti keçmiş milli təhlükəsizlik naziri Eldar Mahmudovun ailə biznesinə daxildir. Bu holdinqi keçmiş nazirin oğlu Anar Mahmudov idarə edirdi.

"Caspian Cyristal" şirkəti Azərbaycanda dünyanın hər bir yerindən gətirilmiş eksklüziv şərablar və alkoqollu içkilər təklif edən ilk butikin - "Wine City"nin yaradıcısıdır. Hazırda Bakıda bu adla 3 butik fəaliyyət göstərir. "Wine City" mağazasında 18 min şüşənin saxlanıldığı şərab anbarı qurulub. Şərab butikinin layihəsi və dizaynı fransızlarla birgə hazırlanıb. Bu şərablar elit müəssisələrə təqdim edilir və VİP müştərilər üçün nəzərdə tutulub. Habelə "Caspian Crystal" şirkəti 2008-ci ildən etibarən lüks qədəhlər istehsalçısı "Riedel Crystal" şirkətinin Azərbaycanda rəsmi distribütorudur. "Caspian Crystal" şirkətinin fəaliyyətinin bir istiqaməti Avropanın ən yaxşı istehsalçılarından eksklüziv qida məhsullarının idxalıdır. 2007-ci ildə şirkət öz ərzaq bazasını yaradıb və "Gastronomy" pərakəndə və topdansatış üzrə ilk mağazasını açıb. Hazırda "Gastronomy-1", "Gastronomy-2" və "Gastronomy-3" mağazaları fəaliyyət göstərir. Öz fəaliyyətinə restoran biznesi ilə başlayan "Caspian Crystal" - "Beluga", "Salvador Dali", "Lord", "VİP", "Velluto" və "Crystal Shikhovo" kimi dəbdəbəli restoranlar şəbəkəsi yaradıb. "Caspian Crystal" şirkəti müəssisə və təşkilatların əməkdaşlarının qida ilə təmin olunmasının təşkili üzrə podrat xidmətlərinin göstərilməsi üzrə də ixtisaslaşıb. Azərbaycanda "Range Rover", "Jaquar", "Maserati" avtomobillərinin və "Dicati" motosikletlərinin rəsmi təmsilçisi olan "Crystal Motors" şirkəti də "Caspian Crystal" holdinqə bağlıdır. "Caspian Crystal"ın baş ofisi Bakıda Yusif Səfərov küçəsində "Caspian Crystal" plazada yerləşir.

Xatırladaq ki, Eldar Mahmudovun işdən çıxarılmasından və onun MTN-dəki mütəşəkkil qruplaşmasının zərərsizləşdirilməsindən sonra "Caspian Crystal" şirkətinin də fəaliyyətini dayandırdığı haqda məlumatlar gəlirdi. Lakin daha sonra məlum oldu ki, şirkət işləyir və onun tərkibinə daxil olan müəssisələr fəaliyyətini davam etdirir...

**Gələn məlumatları Eldar Mahmudovun dirçəlməsi, yenidən meydana qayıtması kimi qəbul edənlər artıq çoxluq təşkil edir. Belə görünür ki, Eldar Mahmudovun meydana qayıdacağı ilə bağlı iddialar əbəs deyil. Amma onun revanş cəhdi baş tutacaqmı? Bu suala birmənalı cavab vermək hələlik tezdir.**

**❑ E.MƏMMƏDƏLİYEV**

# Məktəb direktoru ilə jurnalist arasında qalmaqal

## Məktəb rəhbəri küçə sözlərindən istifadə edib; qanunlar həmkarımızın tərəfindədir...



Nailə Məmmədova

**Bakı şəhəri Sabunçu rayon 187 saylı tam orta məktəbin müəllimlərindən biri təhsil naziri Mikayıl Cabbarova məktub yazaraq, məktəb direktorundan şikayət edib və onun özbaşınalıqlarına qarşı tədbir görülməsini xahiş edib.**

Axar.az-ın redaksiyasına da göndərilən həmin məktubda illərdir pedaqoji fəaliyyətlə məşğul olduğunu deyən şikayətçi məktəb direktoru Məmmədova Nailənin müəllimlərdən aylıq haqq tələb etdiyini, onları ağır sözlərlə təhqir etdiyini qeyd edib.

Adının açıqlanacağı təqdirdə direktorun təzyiqi ilə üzləşəcəyindən ehtiyat etdiyini vurğulayan məktub müəllifi 187 saylı orta məktəbin direktoru Nailə Məmmədovanın hər bayramda "bayrampayı" adı ilə şagirdlərdən müəyyən məbləğdə pul yığdırdığını, məktəbin xadimələrini evində qulluqçu kimi işlətdiyini də iddia edib. Nailə Məmmədovaya qarşı irəli sürülən başqa bir ittiham isə onun uşaqların 1-ci sinfə qəbulu, dərs bölgüsü, attestatların satılması, fond pulu, təmir pulu və s. məsələlərdə suçlanmasıdır.

**Sayt yazır:** "Sözügedən şikayətlə bağlı qarşı tərəfin mövqeyini öyrənmək üçün Sabunçu rayon 187 saylı tam orta məktəblə əlaqə saxladıq. Özünü direktor müavini kimi təqdim edən şəxs isə əməkdaşımızı təhqir və təhdid etdi. Onun sözlərini olduğu kimi qeyd edirik *(səs qeydi təqdim edilir)*:

"Get işinlə məşğul ol! Deyəsən, sənin başın bədəninə ağırlıq edir. Get öyrən, gör sən kimə zəng eləmisən. Nailə xanım kimi təhqir edib, kimdən pul alıb?! Sübutun varsa yaz! "Dux"un varsa, dediklərinin arxasında dayan! Səni məhkəməyə verib başına oyun açaram. Çox ayıb olsun. Sənin "Axar.az"ına da ayıb olsun, axmayan ağzına da ayıb olsun... Tərbiyəsiz!"

Qeyd edək ki, özünü "direktor müavini" kimi təqdim etsə də, səsinə və intonasiyasına görə onun məhz direktor olduğu şübhəsi yaranır. Bu cür əxlaq sahibi olan direktor və ya direktor müavininin fəaliyyət göstərdiyi məktəbdə isə işçilərin təhqir edildiyi barədə məktubda yazılanların həqiqət olduğuna inam artır.

Sabunçu rayon 187 saylı tam orta məktəbin direktorunun səs yazısı ilə bağlı araşdırmalara başlanılıb. Bu barədə axar.az-a Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Cəsarət Valehov bildirib. Onun sözlərinə görə, artıq məsələ araşdırılır, araşdırmanın nəticələri barədə ictimaiyyətə məlumat veriləcək. Bakı Təhsil İdarəsinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Bəşarət Məmmədov Sabunçu rayon 187 saylı tam orta məktəbin özünü direktor müavini kimi təqdim edən direktora Nailə Məmmədovanın jurnalisti təhqir edən səs yazısına münasibət bildirərkən, məsələni Təhsil Nazirliyi ilə yanaşı, Bakı Təhsil İdarəsinin də araşdırdığını bildirib.

**B.Məmmədov axar.az-a bildirib ki, əvvəlcə jurnalisti kimin təhqir etməsi araşdırılacaq:** "Məktəb nümayəndəsi özünü təqdim etmir. Öncə bu araşdırılmalıdır ki, o kimdir? Həqiqətənmi direktorun müavinidir? Ola bilər ki, tamam başqa bir şəxs olsun, özünü direktor müavini kimi təqdim etsin. Bunlar hamısı araşdırılacaq və bununla bağlı lazımi addım atılacaq".

**B.Məmmədovun sözlərinə görə, şəxsin kimliyi müəyyənləşdirildikdən sonra ona hansı cəzanın tətbiq ediləcəyi müəyyənləşdiriləcək:**

"Hələ bir söz demək düzgün olmazdı. Bunlar hamısı araşdırmadan sonra məlum olacaq".

"Yeni Müsavat" isə məsələyə "KİV haqqında" Qanun prizmasından baxmağı təklif edir. Jurnalistin vəzifə başında olan məmura sualla müraciət etməsi qanunla necə tənzimlənib?

Media ekspertləri qanuna istinad edərək bildirirlər ki, ümumiyyətlə, jurnalist işlə bağlı vəzifə başında olan məmura müraciət etməkdə tam səlahiyyətlidir. Belə ki, hazırda dərs ili başlamasa da, məktəblərdə müəllim və rəhbərlik heyəti üçün iş başlanıb. Yəni jurnalistin məktəb direktorunu məzuniyyətdə olduğu vaxt narahat etməsi kimi arqument avtomatik olaraq qüvvədən düşür. Bundan başqa, müraciət işlə, xüsusən də məmura qarşı yönəlmiş şikayətlə bağlıdırsa, "qarşı tərəfin mövqeyini" öyrənmək baxımdan jurnalistin zəngi obyektivlik göstəricisidir. Qanun həm də jurnalisti təhqir edən şəxsin kimliyini araşdırıb, onun cəzalandırılmasını da mütləq sayır.

**Digər tərəfdən, pedaqoq olan şəxsin bu cür davranış tonu onu həmin fəaliyyətdən kənarlaşdırmağı zəruri edir...**

**❑ Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 180 (6794) 30 avqust 2017

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov Türkmənbaşı sayağı bir sərəncam imzalayıb. Sərəncama əsasən, gənc nəsildə vətənpərvərliyin, tarixə, milli kökə bağlılığın və dünyagörüşün formalaşdırılmasına xidmət edən "Oxunması zəruri olan kitabların siyahısı" təsdiq edilib. Buna uyğun olaraq təhsil və mədəniyyət müəssisələrinin kitabxanalarında müvafiq kitab guşələri yaradılmalıdır.**



# Vasif Talıbovun "30 kitab oxuyun" sərəncamına fərqli reaksiyalar

V.Talıbovun kitab siyahısında müxtəlif janrlı yerli və xarici ədəbiyyatlara üstünlük verilib. Məsələn, siyahıya "Kitabi-Dədə Qorqud" dastanı, "Atalar sözü" (Azərbaycan xalq ədəbiyyatı), ABŞ-ın 16-cı prezidenti Avraam Linkolnun oğlunun müəllliminə məktubu, Nikolay Ostrovskinin "Polad necə bərkidi", Moris Meterlinknin "Arıların həyatı" və "Göy Quş" əsərləri, "İslamda müdrik kəlamlar", Cəlil Məmmədquluzadənin "Hekayələr", Nizami Gəncəvinin "Sirlər xəzinəsi", Cek Londonun "Həyat eşqi" kimi kitablar daxil edilib.

Maraqlıdır ki, siyahıda heç bir müasir yazarın əsəri yoxdur.

**Naxçıvanlı hüquq müdafiəçisi Novella Cəfəroğlu "Yeni Müsavat"a bildirib ki, əslində Vasif Talıbovun sərəncamında qeyd olunan kitablar çox faydalıdır:** "Naxçıvan çox qəliz yerdir. Əvvəlcə Talıbovdan doğurdan da çox narazı idim. O, Naxçıvanı elə saxlayırdı ki, camaat Bakıya qaçırdı. Ancaq bir müddət sonra başa düşdüm ki, bəlkə də Naxçıvana belə bir adam lazımdır. Çünki Naxçıvanın sərhədlərində bir tərəfdən Ermənistan, digər tərəfdən, Türkiyədir ki, o istiqamətdə də PKK-çılar çoxluq təşkil edir. Həmçinin İran da Naxçıvanla sərhəddədir. İndi baxın, bu illər ərzində Naxçıvanda bir vəhhabi, radikal islamçı olmayıb. Ermənistandan da Naxçıvana bir güllə atılmayıb. Bəlkə də Talıbov Naxçıvanı bu cür saxlamaqla, elə Naxçıvanın özünü qoruyub, saxlayır. Məncə, məsələ bu cürdür. Həmçinin o, küçələrə xeyli sayda çevik polis də çıxarırdı. Düşünürəm ki, bununla da Naxçıvanı qoruyurdu. İndi də kitab siyahısı hazırlayıb. Baxıram ki, bu kitablar da çox gözəldir. Əgər Naxçıvan camaatı Cek Londonu oxuyacaqsa, bu yaxşı əlamətdir. Cek London hər zaman azadlıq istəyib. Eləcə də Linkoln azadlığı gətirən insandır. Əgər Talıbov deyirsə ki, bu kitabları oxuyun, deməli, o, çox irəliyə gedir. Sağ olsun. Naxçıvan camaatı onsuz da hər cəhətdən savadlıdır. Çünki naxçıvanlılar hər dəfə basqı altında olublar. Ona görə də İslam dinini də dəqiq bilirlər. Yadımdadır ki, mən uşaq olanda dayılarımın evində bu sadalanan kitabların əksəriyyəti var idi. Əgər Talıbov deyirsə ki, Linkolnun oğlunun müəllliminə yazdığı məktubu oxuyun, bax bunun özü böyük addımdır".



**Novella Cəfəroğlu:** "Əgər Talıbov deyirsə ki, bu kitabları oxuyun, sağ olsun"



**Mehriban Vəzir:** "Bu, çox gülməli addımdır və bunun rəsmi bir sərəncam olması ondan da gülməlidir"



**Aqil Abbas:** "Vasif Talıbov Konfutsidən elə sitatlar çəkirdi ki, heyran qalırdım"

**Naxçıvanlı deputat Fazil Mustafa qəzetimizə bildirib ki, imkanı olsa hər kəsə məcburi formada və ya həvəsləndirərək kitab oxudar:** "Azərbaycan cəmiyyətinə hətta məcburi formada, fərman, sərəncam yolu ilə kitab oxudulmasının tam tərəfdarıyam. Oxumayan cəmiyyəti oxutmaq üçün hansısa yol tapmaq lazımdır. Mənim əlimdə hər hansı bir imkan olsaydı, insanları məcburi şəkildə kitab oxumağa təşviq edərdim. Çünki ən az kitab oxuyan cəmiyyətlərdən biri Azərbaycan cəmiyyətidir. Bunu araşdırmalar da göstərir ki, bizdə kitab oxumaq ənənəsi çox aşağı düşüb. Ona görə də bu istiqamətdə hər hansı bir addım atılırsa, ola bilər ki, bunun forması müzakirə edilə bilər. Ancaq məqsəd və niyyət yaxşıdırsa, burada narahatlıq üçün əsas görmürəm. Ümumiyyətlə, insanların oxumağa sövq edilməsi üçün müəyyən addımların atılması vacibdir. Biz görürük ki, adət-ənənələrlə də bağlı fərmanlar verilir. Fərman verməsən yenə də yas həmin yaslığında, toy da həmin toyluğundadır. Bəlkə burada da deyilə bilər ki, niyə fərman veriblər. Cəmiyyətin öz öhdəsinə buraxılsa, vəhşixana toylardan və ya israfçı yaslardan yaxa qurtara bilməyəcəyik. Bunu fərmanla etdikdə bəlkə də qarşısını almaq olur. Birinci Pyotr dövrünə baxın. Deyilə bilər ki, onun dövründə bir çox məsələlər insan haqlarına zidd idi. Ancaq məcburiyyət olmasaydı, bu gün Rusiya inkişaf etmiş bir ölkəyə çevrilməzdi. Bu məsələdə də söhbət kitab oxumağın cəmiyyətə müəyyən dərəcədə vacib olduğunu vurğulamaq niyyətindən gedirsə, bunun forması müzakirə edilə bilər. Oradakı kitabların hər birinin özünə görə, bir faydası var. Belə bir fərmanın isə seçilməsi, məncə, məcburiyyətdən irəli gəlir. Çünki oxuyan cəmiyyət yoxdur. Hansısa formada cəmiyyəti oxumağa sövq etdirməyin tərəfdarıyam. Əlimdə imkan olsa inanın ki, orta məktəblərdə şagirdlərin məcburi formada mütaliə etməsinə çalışardım. Test üsulundan sonra görürük ki, uşaqlar 650-700 bal toplayırlar. Ancaq soruşanda görürsən ki, bir dənə də olsa bədii ədəbiyyat oxumayıblar. Əksəriyyəti Balzakı, Tolstoyu, Dümanı və digərlərini oxumayıblar. Dünya görüşü, bədii təxəyyül olmayan yerdə insan necə inkişaf edə bilər. Ona görə də Azərbaycan cəmiyyətində bir sıra məsələlərin məcburi formada insanların gündəminə gətirilməsi vacibdir. Xüsusilə də kitabla bağlı bu belə olmalıdır. Bir çox məsələlərə fərqli baxıram ki, nəyisə insanlara məcbur etmək olmaz. Ancaq uşağın hələ yaşı azdır, onu da oxumağa məcbur etməsək, kim gedib bunu könüllü oxuyacaq. Gərək vərdişə çevrilsin ki, sonra özü oxusun. Cəmiyyətdə də bu gün oxuma vərdişi aşağıdır, ona görə də bu kimi addımların atılması vacibdir".

**Yazıçı-publisist Mehriban Vəzir isə fərqli düşüncədədir. O bildirib ki, Vasif Talıbovun belə bir sərəncam imzalaması gülməlidir:** "Bu çox gülməli addımdır və bunun rəsmi bir sərəncam olması isə ondan da gülməlidir. İnsanları mütaliəyə sövq etmək lazımdır və bu, dövlətin bir maarifləndirici proqramı əsasında edilməlidir. Ancaq qəzet köşklərini gizlədib, kitabxanaları dağıdıb, radio-televiziyada maarifçilik işini məhv edib belə bir sərəncam imzalamaq çox qəribədir. Hətta bir az da təhlükəli tendensiyadan xəbər verir. Çünki Orta Asiya ölkələrinin bəzilərində hətta dövlət başçıları öz kitablarını tədrisə salırlar. Çox əcaib bir şeydir. Azərbaycan 1918-ci ildə respublika qurmuş, təməl qoymuş bir ölkədir. Burada belə addımlar atmaq isə həqiqətən də bizim adımıza çox böyük biabırçılıqdır. Əslində onu da qeyd edib ki, siyahıda maraqlı kitablar var. Ümumiyyətlə, kitab oxumaq çox vacib bir haldır. Hər kitabın da özünün faydası var. Ancaq necə ki, pul adamı adam etmirsə, kitab da elədir. İnsanın özündə gərək bir insanlıq olsun. Kitab oxumaqla insanın düşüncəsində dəyişikliklər olsa da, bu, çox az olur. Biz o qədər özü ağırlığında kitab oxumuş vicdansız insanlar tanıyırıq ki. Bəşər tarixində hər cür insan var. Şimali Koreyanın rəhbəri Avropa təhsili alıb. Yüzminlərlə insanın qanına əli batmış bir adam olan Bəşər Əsəd də Avropa təhsillidir. Yəni bunlar çox nisbi şeylərdir. Bir daha qeyd edirəm ki, bu, maarifçilik deyil. Buna gülməkdən başqa reaksiya vermək olmur. Dövlət öz vətəndaşını müasir insan kimi yetişdirmək üçün 11 illik icbari proqrama gərək olan bütün vəsaiti yükləməlidir. Bədii, elmi, vətəndaşlıq təfəkkürü - ümumilikdə hər şey bax ora yüklənməlidir. Ancaq bilirik ki, bizdə orta təhsil çox bərbad gündədir. Bu boyda boşluğu qoyub belə işlərlə məşğul olmaq isə doğru deyil".

**Deputat-yazıçı Aqil Abbas kulis.az-a bu fikirləri deyib:** "Mən Vasif Talıbovla bir-iki saat söhbət eləmişəm. Vasif müəllim yüksək dünyagörüşünə sahibdir, çox mütaliəli adamdır. Konfutsidən üzü bəri hər şeydən xəbəri var. Nitşesindən, Şopenhaurindən tutmuş bütün filosofları, dünya ədəbiyyatını oxuyub, həzm edib. Mənə Konfutsidən elə sitatlar çəkirdi ki, heyran qalırdım. İndi bəzi adamlar sosial şəbəkələrdə tanımadan, bilmədən onun haqqında yazırlar. Halbuki Vasif müəllimin mütaliəsi, savadı çox böyükdür. Onun verdiyi siyahı da məcburi deyil. Sadəcə, gənclərə tövsiyə edib ki, kitab oxuyun. Bundan gözəl nə ola bilər ki? Çox gözəldir. Mən özüm arzu eləyərdim ki, bu cür siyahılarda İsmayıl Şıxlı, Sabir Əhmədov, Çingiz Hüseynov, İsa Muğanna, İsi Məlikzadə də olsun. Siyahıda gənc nəslin vətənpərvərliyinin formalaşmasından söhbət gedir. Bu yazıçılarımız da gənclərin formalaşmasında rol oynaya bilərlər. Deyə bilərsiniz ki, siyahıda Tolstoy, Dostoyevski niyə yoxdur, amma Ostrovski var. Axı burda gənc nəslin milli kökə bağlılığından söhbət gedir, onun tərbiyəsindən, vətənpərvərliyindən. Dostoyevskini oxuyub necə vətənpərvər olmaq olar? Yaxud da tərbiyəli. Söz yox ki, Dostoyevski də, Tolstoy da böyük yazıçıdır. Ancaq bu siyahının mövzusuna uyğun deyillər. Məsələn, mövzuya uyğun olaraq Şoloxovun "İnsan taleyi"ni oxumaq olar.

Mən bir məsələni də qeyd etmək istəyərdim. Vasif müəllimin tapşırığı ilə jurnalistlər, redaktorlar, müxbirlər Naxçıvana səfər eləmişik. Yüksək səviyyəli görüşlər təşkil olunub orda. Bu barədə mətbuatda yazılar gedib. Mənim də o görüşlər haqqında yazılarım var. Arzu eləyərdim ki, bu görüşlər yazıçılarla da olsun. Şagird, tələbə canlı yazıçı görsün. Heç vaxt bir məktəblinin Elçin Əfəndiyevlə, Anarla, Çingiz Abdullayevlə, ya da gənc yazıçılarla görüş yadından çıxmaz.

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
N 180 (6794) 30 avqust 2017



# Lazım da şofer çıxdı

Zamin HACI
zaminhaci@gmail.com

**Ədliyyə Nazirliyinin uşaqlara adqoyma idarəsinin müdiri, öz adı da çox qəribə olan bir xanım deyib ki, bu il millətimiz ilk dəfə Dəfinə adından yararlanıbdır.**

Sevindirici haldır. Uşağa belə ad qoymaqla millət neft gəlirlərindən, qızıl tapacağımızdan, nə bilim, xoşbəxt kommunizm quruculuğu yolunda inamla addımlamağımızdan ümidini kəsmədiyini nümayiş etdirmişdir. Üstəlik, axırı "ə" hərfi ilə bitdiyindən böyük ehtimal bunun qız uşağı olmasını zənn edirik. Demək, uca millətimiz Bəsti, Kifayət adlarını da arxivə verir, daha qız uşağı doğulanda xəzinə tapdığını fikirləşir. Halal olsun. Belə getsə biz hətta Amerikanı ötüb keçərik. Yandı UZİ işlədənlərin dədəsi...

Ancaq yenə də işıqlı gələcəyə gedən yolumuzun üstünə avtoş məmur balalarının çıxması təhlükəsi vardır, dünən onlardan bir-ikisinin üç-dörd adamı basdalaması xəbərləri atmosferdə dolaşırdı. Bəs indi biz nə edək? Məncə, xalqa müəyyən məsləhətlər verməliyik.

İlk olaraq avtomobil yollarından mümkün qədər uzaq dolaşmalıyıq. Səki təkcə piyadalar üçün nəzərdə tutulmayıb, bunu bilin. Ora dükana pilləkən, bara keçid, qonşu qalaktikaya deşik, paralel kainata uçuş nöqtəsi və sairə kimi istifadə edilir bizim ölkədə. Həmçinin avtomobillər üçündür. Avtomobil saxlamaq, sürətin başını yığa bilməyəndə dırmaşmaq, başqa məmurbala ilə ötüşərkən çıxıb kimisə vurmaq və sairə də səkidən istifadə qaydaları haqda qanunumuzda açıq yazılıbdır.

Əgər səki ilə hərəkət etməkdən başqa əlacınız yoxdursa, uzaqdan "Range Rover", "Gəlindabəvaqen" tipli bahalı maşın gəldiyini görsəniz dərhal qaçıb bir dirəyin-filanın dalına uzanın. Sağ qalmaq ehtimalı müəyyən qədər yaranır. Hətta maşın üstünüzdən keçəndən sonra ayağa durub "Ya Qarabağ, ya ölüm!", "Təki vətən yaşasın!", "Biləcəri keçilməz!" hayqırıb əlinizdəki torbanı maşına atmaq da olar. Bu zaman ətraf müşahidəçilər sizi tanka qumbara atan milli qəhrəman kimi təsəvvür edəcəkdir. Bəxtiniz gətirsə, hadisənin videosunu kimsə telefonla çəksə, sosial şəbəkə qəhrəmanı olaraq Mark Zukerberqdən "1-ci dərəcəli Layk medalı" qazanarsınız.

Qaçıb ağaca çıxmaq, açıq kanalizasiya lyukuna girmək, ictimai nəqliyyatın altına tullanmaq kimi üsullar da var. Axırıncını ona görə yazıram ki, qoy insanı vuranda avtobus vursun, hansısa icra hakiminin müavinin oğlu vuranda bu hadisədə ictimailik səviyyəsi aşağı olur. Avtobusda isə millət gedir. Belə ölüm insanın xalqa yaxınlığını da artırır.

Dünən mən internetdə nazirlərimizin Bakıda çərpələng uçurtmasını da gördüm, Xalid Hüseynin "Çərpələng uçuran" romanını xatırladım. Zarafat edirəm, o romanın bizim mövzuya heç dəxli yoxdur. Ancaq avtoş məmur balalarına tuş gəlmək ehtimalı olan zəhmətkeşlərimizə çox dəxli var. Düşündüm ki, gərək biz özümüzlə çərpələng gəzdirək. Məmur balası maşını üstümüzə sürəndə çərpələngi uçurdub havaya qalxaq. Yuxarıdan "Vura bilmədin, vura bilmədin!" deyə yanıq vermək, cırnatmaq da olar.

Eyni zamanda məmur balası ilə toqquşmanın endşpil mərhələsi, yəni ölümdən sonrakı həyatımız da öncədən planlaşdırılsa yaxşı olar. Çünki bütün sığorta tədbirlərinə baxmayaraq bəzən əcəldən qaçmaq olmur. Gərəkdir hər bir düşüncəli vətəndaş vəsiyyətini hazırlayıb orada məmur balasından ölümündən sonra nə gözlədiyini konkret yazsın. Harda uşaqlarına ev istəyir, arvadı hansı sayta intervü verib məmura minnətdarlıq etməlidir, yeznəsinə dükan açılmasını, bacanağının neft şirkətində işə götürülməsini, qohumlardan kimin dövlət hesabına sünnət edilməsini və sairəni yazıb qoysun. Yoxsa avariya olur, görürsən qarşılıqlı anlaşma çətinləşir, bir sürü jurnalist də ordan-burdan dızıldaşır... O cümlədən, nazir uşağı vursa nə istəyirik, icra başçısının oğlu öldürsə nə - bunlar ayrı yazılsa yaxşı olar.

Anlaşma demişkən, ABŞ Qarabağ davasına, ATƏT-in Minsk Qrupuna təzə həmsədr göndərib, bu da Şofer adamdır. Ciddi sözümdür, həmsədrin adı Endryu Şofer-dir. Təsəvvür edin, hətta bunlar da bizim avtoş millət olduğumuza, "Lazım"ın maşınla gələcəyinə işarə vururlar.

# Qarabağda Şofer dönəmi başladı-hərb, yoxsa sülh olacaq?

## ABŞ və Rusiyanın Qarabağ tənzimlənməsi ilə bağlı planları haçalanır, təhlükəli durum yaranır; **Hikmət Hacızadə:** "O zaman Dağlıq Qarabağ əbədi olaraq Azərbaycandan ayrılacaq"

**ATƏT-in Minsk Qrupunda ABŞ-ı təmsil edən Hoqlandı əvəzləyən Endryu Şofer rəsmən səlahiyyətlərinin icrasına başlayıb. Artıq rəsmi Vaşinqton bununla bağlı mövqeyini açıqlayıb.**

ABŞ Endryu Şoferin ATƏT-in Minsk Qrupunun həmsədri təyin olunmasını alqışlayır. APA-nın "Amerikanın Səsi"nə istinadən verdiyi məlumata görə, bu barədə ABŞ Dövlət Departamentinin sözçüsü Heder Nouertin bəyanatında bildirilir.

Bəyanata vurğulanır ki, E. Şofer Avropa və beynəlxalq təşkilatlarla zəngin iş təcrübəsinə malikdir. "ABŞ beynəlxalq hüquqa, o cümlədən Helsinki Yekun Aktında əksini tapmış güc tətbiq etməmə, ərazi bütövlüyü və xalqların öz müqəddəratını müəyyən etmə prinsiplərinə əsaslanan ədalətli həll yollarının axtarılması üçün səy göstərəcək", - deyə sözçünün bəyanatında qeyd olunur. Məlumatda deyilir ki, E.Şoferin təyinatı barədə qərar Azərbaycan və Ermənistan hökumətlərinə göndərilib. Bununla da o, rəsmi olaraq vəzifəsinin icrasına başlamış sayılır.

Bu təyinatdan əvvəl E. Şofer ABŞ-ın Vyanadakı beynəlxalq təşkilatlarda müvəqqəti işlər vəkili vəzifəsini tutub. 2015-ci ilin avqustundan 2017-ci ilə qədər o, missiyanın sözçüsünün müavini olub. Buna qədər diplomat 2014-cü ilin avqustundan 2015-ci ilə qədər Atom Enerjisi üzrə Beynəlxalq Agentlikdə müşavir kimi çalışıb. 2011-2014-cü illərdə ABŞ-ın Kiprdəki səfirinin müavini olub, ABŞ-ın Küveyt, Bəhreyn və Rusiyadakı səfirliklərində işləyib. Vaşinqtonda isə Dövlət Departamentinin İraq üzrə bölməsində çalışıb, dövlət katibinin müavinin siyasi məsələlər üzrə köməkçisi olub.

**Sələfi Riçard Hoqland da Şoferi müsbət xarakterizə edib.** "O, ABŞ-ın çox təcrübəli diplomatıdır. Şofer Vyanada beynəlxalq təşkilatlar yanında ABŞ-ın Missiyasında işləyib" - keçmiş həmsədr deyib.

Ancaq yeni həmsədrin dönəmində Qarabağ məsələsinin həlli ilə bağlı ciddi uğurların əldə olunacağını gözləmək sadəlövhlükdür. Ən azı ona görə ki, az qala 30 ilə yaxındır mövcud olan bu münaqişə çox həmsədrləri yola salıb. Xatırladaq ki, 1994-cü ilin may ayında Bişkekdə Azərbaycan və Ermənistan arasında atəşkəs sazişi imzalanandan sonra Dağlıq Qarabağ münaqişəsinin həlli ilə ATƏT-in Minsk Qrupu məşğul olur. Qrup ATƏT-in Nazirlər Şurasının 1992-ci ilin 24 martında Helsinkidə keçirilmiş görüşündə yaradılıb. Qrupun üzvləri Azərbaycan, Ermənistan, Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa, Polşa, Almaniya, Türkiyə, Belarus, Finlandiya və İsveçdir. 1996-cı ilin dekabrından onun Rusiya, ABŞ və Fransadan ibarət həmsədrlik institutu fəaliyyət göstərir. Ermənistan qoşunlarının Dağlıq Qarabağdan qeyd-şərtsiz çıxarılması ilə bağlı BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qısa fasilələrlə qəbul edilmiş 822, 853, 874 və 884 saylı qətnamələri, o cümlədən BMT Baş Assambleyası, AŞ PA, ATƏT, İƏT və digər təşkilat və qurumların qətnamələri mövcuddur. Ancaq Ermənistan bu günədək bir beynəlxalq təşkilatın qətnamə və tələblərinə əməl etməyib. R.Hoqlandın keçən həftə açıqladığı tənzimləmə prinsiplərinə isə Ermənistanda ciddi münasi-



bət sərgilənmədi. Prezident Serj Sərkisyan açıqlanan müddəaların yenilik olmadığını dedi, hətta Rusiya prezidenti Vladmir Putinlə Soçidəki görüşündə Qarabağ məsələsinə geniş yer ayırmadıqlarını vurğuladı. Bu isə ondan xəbər verir ki, erməni tərəf daha çox Rusiyanın təklif etdiyi variantlar üzrə hərəkət etməyə meyllidir, nəinki digər dövlətlərin. Odur ki, amerikalı həmsədrin kim olması da vəziyyəti ciddi şəkildə dəyişməyəcək. Belə olan halda yenidən hərb variantı gündəmə gələ bilər ki, bunu vasitəçilər də anlayır. Ona görə də Rusiya sentyabrın ilk ongünlüyündə Moskvada dini liderləri, ABŞ isə BMT Baş Assambleyası çərçivəsində XİN başçılarını bir araya gətirməklə gərginliyi nisbətən səngitməyə çalışır. Erməni mətbuatı da bugünlərdə açıq şəkildə yazır ki, Sərkisyana Rusiyanın dəstəyini alaraq yaxın bir neçə ay ərzində də Qarabağda status-kvonun saxlanmasına nail olmaq və gələn il hökumətin başına keçməsinə zəmin yaratmaq daha çox lazımdır. Ona görə də o, sadəcə, zamanı uzatmağa meyllidir, nəinki danışıqları bərpaya.

Rusiyanın diktəsi ilə hərəkət etdiyi şübhə doğurmayan Qarabağ separatçılarının da mövqeyindən belə aydın olur ki, onlar da, sadəcə, oyun oyratçıların təmsilçisi David Babayanın "keçmişə qayıtmaq mümkün deyil, nə əvvəlki sərhədlərə, nə də statusa" iddiası da hərbsiz keçinməyin mümkün olmayacağını deməyə imkan yaradır. Onun iddiasına görə, Azərbaycan Dağlıq Qarabağın müstəqilliyinə razı olmadığı üçün konsensus olmayacaq. Belə bir situasiyaya ABŞ başda olmaqla, aparıcı ölkələrdən tutarlı reaksiya verməməsi də Azərbaycan üçün başqa çıxış yolu qoymur.

Ancaq rəsmi Bakı sonadək danışıqlarda iştirakın da tərəfindədir. Azərbaycan XİN substantiv danışıqları davam etdirməyə hazır olduğunu BMT görüşündən qabaq bir daha açıqlayıb.

**Politoloq Hikmət Hacızadə Hoqlandın açıqladığı sənəd haqda "Yeni Müsavat"a danışarkən bunları bildirdi:** "Təəssüf ki, bu sənədin arxasında ABŞ-ın heç bir konkret cəhdi görünmür. İşğalçılara heç bir sanksiyanın tətbiqindən də bəhs olunmur. Beləliklə, ortada bir ciddi plan var, o da Rusiyanın planıdır. Yəni ətraf rayonlar qaytarılsın, təməs xəttinə "rus sülhməramlı quvvələri" yerləşdirilsin. Onda Dağlıq Qarabağ əbədi olaraq Azərbaycandan ayrılacaq və Azərbaycan Rusiyanın güclü təsirinə düşəcək. Yeganə plan budur". **H.Hacızadə əmindir ki, Qarabağ məsələsinin həlli məsələsində Rusiya və ABŞ-ın mövqeləri üst-üstə düşmür:** "Rusiya Azərbaycanı qaytarmaq istəyir. ABŞ-a isə onun müstəqil olması sərfəlidir ki, bura ilə neft, strateji və s. işbirliyi qursun". Ekspertin dediklərindən ortaya çıxan nəticə budur ki, iki böyük paytaxtın fərqli yanaşmaları təhlükəli perspektiv vəd edir.

**"Putin həm Azərbaycan prezidenti İlham Əliyevlə, həm də Ermənistan prezidenti Serj Sərkisyanla görüşməklə real vəziyyəti araşdırır". Bunu isə keçmiş xarici işlər naziri Tofiq Zülfüqarov azvision.az-a müsahibəsində deyib. O, Minsk Qrupunun sabiq amerikalı həmsədri Riçard Hoqlandın problemin həllinə dair təklif etdiyi 6 prinsiplə bağlı danışarkən deyib ki, Hoqlandın təklifləri ABŞ-ın mövqeyini əks etdirir:** "Bundan qabaq müxtəlif bəyanatlar olub. Şəxsən mən həmin bəyanatları tənqid etmişəm. Çünki mükəmməl olmayıb. Hoqlandın bəyanatı isə bəzi məqamlara işıq salır. Əgər bizə Lavrovun planının incəlikləri məlum olsaydı, bu bəyanatla fərqini görə bilərdik. Hesab edirəm ki, bu, çox maraqlı olardı. Əgər Lavrovun planı ilə bu mövqe arasında fərqlər varsa, deməli, biz açıq şəkildə ABŞ-ın münaqişənin həllində fəallaşmasının ilkin siqnallarını alırıq". **T.Zülfüqarov deyib ki, Azərbaycan və Ermənistanın mövqeyi fərqlidir:** "Həmsədrlər və Azərbaycan tərəfi reallığa əsaslanaraq istəyir ki, məsələlər mərhələli şəkildə həll olunsun. Ermənistan isə məsələlərin paket şəkildə, yəni eyni vaxtda həllinə tərəfdardır. Bu, reallıqdan uzaq təklifdir. Burada əsas məqsəd ondan ibarətdir ki, ümumiyyətlə, danışıqlar nəticə verməsin".

**Eks-nazir deyib ki, Rusiya bu və ya digər formada Ermənistanın qarşısında şərt qoyub:** "Biz müzakirə etdiyimiz məsələdə ABŞ-ın mövqeyi açıqlanır. Bu mövqe məhz Ermənistan tərəfindən qəbul olunmur. Deməli, hər hansı inkişafa nail olmaq, müharibə riskinin qarşısını almaq üçün Ermənistana bu və ya digər formada təzyiq olunmalıdır. De-fakto Ermənistana təzyiq edilmir. Aprel döyüşlərindən sonra imkan vardı ki, münaqişənin həllində inkişafa nail olunsun. Amma baş vermədi. Əksinə, Rusiya tərəfindən Ermənistana silah göndərilir. Eyni zamanda Rusiya Xarici İşlər Nazirliyi müxtəlif bəyanatlar verərək danışıqları təməs xəttində atəşkəs rejiminin qorunması istiqamətinə yönəldib. Sərkisyanla görüşdə xarici işlər nazirləri iştirak etmədi. Belə görünür ki, Putinin bu məsələdə xarici işlər naziri ilə fikir ayrılığı mövcuddur. Ona görə də Putin özü bu məsələ ilə şəxsən məşğul olmaq istəyir. Putin həm Azərbaycan prezidenti İlham Əliyevlə, həm də Ermənistan prezidenti Serj Sərkisyanla görüşməklə real vəziyyəti araşdırmaq və hansısa qərara gəlmək istəyir".

❑ **E.PAŞASOY**

# Rusiya həm qorxur, həm də qorxudur - yeni gəlişmə

**Avqustun 28-də işğalçı Ermənistanın rəsmən Rusiyanın vassalına, daha doğrusu, girovuna çevrilməsinin 20 ili tamam oldu. Söhbət tərəflər arasında 1997-ci ildə imzalanmış dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqda müqavilədən gedir.**




# Putin iki emissar göndərdi: birini İrəvana, birini Qarabağa

## "Rus NATO-su"nun erməni baş katibi Ermənistana 3 günlüyə niyə gəlib, abxaz "xarici işlər naziri" Kremlin izni olmadan Xankəndində peyda ola bilərdimi; politoloq: "Ermənilər narahat olmağa başlayıblar ki..."

Qeyd edək ki, həmin müqavilənin müddəti az sonra 50 ilədək - 2047-ci ilə qədər uzadılıb. Bu da o anlama gəlir ki, 2047-ci ilədək Ermənistanın faktiki surətdə həm daxili, həm də və ən önəmlisi, xarici siyasətinin əsas prioritetləri məhz Moskvada müəyyən ediləcək və edilir.

İndinin özündə işğalçı ölkənin olan-qalan iqtisadi, energetik sferası, hava məkanı bütünlüklə Rusiyanın nəzarətindədir, Ermənistanda (Gümrü və Erebuni) iki Rusiya hərbi bazası yerləşir, təcavüzkar ölkənin Türkiyə və İranla sərhədlərini isə rus hərbçiləri (FTB) qoruyur.

*****

Xəbər verildiyi kimi, dünən Rusiya prezidenti Vladimir Putin Ermənistan prezidenti Serj Sərkisyana iki dövlət arasında məlum razılaşmanın 20 illiyi münasibəti ilə təbrik məktubu göndərib. Kremlin mətbuat xidmətinin yaydığı məlumatda bildirilir ki, Putin məktubda Rusiya-Ermənistan münasibətlərini yüksək dəyərləndirib. Öz növbəsində Serj Sərkisyan V.Putinə cavab məktubu yollayıb, Rusiya amilinin Ermənistanın təhlükəsizliyi üçün xüsusi önəm daşıdığını qeyd edib.

Hələ bir xüsusi önəm daşıması da. Söz düşmüşkən, adıçəkilən müqaviləyə əsasən, tərəflərdən birinə hücum olarsa, onlar həmin qüvvəyə qarşı birgə mübarizə aparacaqlar. Bundan əlavə, Ermənistan Rusiyanın dominantlığı ilə yaradılan və "Rus NATO-su" adlanan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) üzvüdür - hansı təşkilatın ki, baş katibliyinə isə, bəlli olduğu kimi, bir neçə ay qabaq erməni general Yuri Xaçaturov gətirilib. Təbii ki, Kremlin rüsxəti ilə.

Maraqlıdır ki, məhz 20 illik ildönüm ərəfəsində Yuri Xaçaturov Moskvadan İrəvana gəlib. Daha doğrusu, Putin tərəfindən Serj Sərkisyanla görüşə göndərilib. Bu, Xaçaturovun yeni postda Ermənistana ilk səfəridir. Musavat.com-un erməni qaynaqlarına istinadən verdiyi xəbərə görə, iki erməni - Xaçaturov və Sərkisyan "Cənubi Qafqazda KTMT-nin səlahiyyətləri çərçivəsində sülh, sabitlik və təhlükəsizliyin təmin edilməsi və digər məsələləri" müzakirə ediblər.

*****

Bəs Xaçaturovun 20 illiyə təsadüf edən və 3 gün çəkəcək (!) ilk İrəvan səfərində konkret hansı hədəf güdülür?

**"Rusiya ABŞ-ın Cənubi Qafqazdakı gedişlərindən narahatdır". Bunu Y. Xaçaturovun Ermənistana səfərini şərh edən sabiq dövlət müşaviri Qabil Hüseynli deyib (axar.az). O, erməni generalın İrəvana göndərilməsində birinci səbəb kimi Qarabağ məsələsini gördüyünü qeyd edib.**

"Görünür, Rusiya ABŞ-ın Qarabağ məsələsində artan rolundan narahatdır və ona görə də fəallıq göstərməyə başlayıb. Ancaq sirr deyil ki, Moskva problemin həllinə dair görüşlərini açıqlamazdan öncə bütün məqam və nüansları Ermənistanla razılaşdıracaq. Əslində Rusiya ABŞ-ın Qarabağla bağlı 6 maddəlik planından sonra fərqlənmək üçün Ermənistanın görüşlərinə əks platforma da nümayiş etdirə bilər", - deyə politoloq qeyd edib.

**Siyasi ekspert bundan başqa, erməni generalın İrəvana qəfil səfərini Kirovokandan tutmuş, Dərələyəzə, Alagöz dağlarına qədər olan hissədə keçirilən Rusiya-Ermənistan birləşmiş qoşunlarının təlimləri ilə əlaqələndirib:** "Təlimlər bugünlərdə sona çatmalıdır. İstisna deyil ki, Xaçaturov Rusiya rəhbərliyinin təlimatlarını Sərkisyana çatdıracaq".

**Q.Hüseynli bütövlükdə regionda mürəkkəb proseslərin getdiyi qənaətindədir:** "Son dövrlərdə ermənilər narahat olmağa başlayıblar ki, guya Azərbaycan Naxçıvanda ordunun sayını artırır və bu, gələcəkdə Ermənistan üçün böyük təhlükəyə çevrilə bilər. Zənnimcə, Sərkisyan bununla bağlı harayını da Xaçaturyan vasitəsilə Moskvaya çatdıracaq. Moskvanın Xaçaturyanı görəvləndirməsinin bu məsələ ilə bağlılığı istisna deyil. Ümumiyyətlə, bu səfərə hansı tərəfdən baxsaq, bölgənin sabitliyinə xidmət etmir və daha çox İrəvanın maraqlarını əks etdirir. Hər halda, Cənubi Qafqazdakı problemlərin həlli istiqamətində gərgin mübarizənin getdiyi dəqiqdir. ABŞ Gürcüstanın yanındadır və üstəlik, bir müddət öncə Azərbaycana mühüm mesajlarını göndərib. Rusiya da məhz bunu kompensasiya etmək üçün siyasi manevrlərə əl atır".

*****

Bu arada, yeni Yuri Xaçaturovun İrəvan səfəri ilə təxminən eyni gündə, Soçidəki Putin-Sərkisyan görüşündən isə bir neçə gün sonra tanınmamış Abxaziya respublikasının "xarici işlər naziri" Daur Kove böyük bir nümayəndə heyəti ilə Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ bölgəsində, Xankəndində olub. Erməni mənbələrinin bildirdiyinə görə, Xankəndində iki separatçı rejimin "xarici işlər nazirliyi" arasında "qarşılıqlı yardım haqqında" müqavilə imzalanıb.

Şübhəsiz ki, bu iki səfər arasında bağlılıq yox deyil və bu bağlılıq da Moskvadan qaynaqlanır. Məsələ ondadır ki, Rusiyanın birtərəfli qaydada müstəqilliyini tanıdığı Abxaziya da Ermənistan kimi Kremlin marionetidir və abxaz "nazir" Moskvanın izni olmadan qəfildən, qanunsuz şəkildə Xankəndində peyda ola, Azərbaycan qarşı belə qələtdə buluna bilməzdi. Yeri gəlmişkən, az öncə Putinin özü Abxaziyada olmuşdu.

Görünür, Putin erməni generalını İrəvana, abxaz naziri isə Xankəndinə yollamaqla bir daha Ermənistana, separatçı bölgəyə ürək-dirək, Bakıya isə xəbərdarlıq mesajı yollayır ki, Rusiya bölgədə - sizin lap yaxınınızdadır və Qarabağ məsələsində əsas faktor Rusiya amili olaraq qalır. Görünən budur Güney Qafqaz uğrunda ABŞ-la rəqabətin sərtləşdiyi dönəmdə Rusiyanın özü də narahatdır...

❑ **Siyasət şöbəsi**



Mehman Əliyev

# Mehman Əliyevin Putinə yazdığı məktub - 4 il öncə nə baş veribmiş?

## Kreml başçısından edilən demokratiya xahişi kimin adından olub...

**"Turan" informasiya agentliyinin direktoru Mehman Əliyev həbs olunduqdan sonra cəmiyyətin ən müxtəlif kəsimlərindən, həmçinin bir sıra beynəlxalq təşkilatlardan, ABŞ Dövlət Departamentindən onun müdafiəsi ilə bağlı bəyanatlar gəldi və proses davam edir.**

Diqqətçəkən məqamlardan biri də Mehman Əliyevin müdafiə edilməsi, həbsdən azad olunması çağırışları ilə yanaşı, onun 4 il öncə Rusiya prezidenti Vladimir Putinə xahiş məktubu hazırlaması və məktubda Putinin demokratik sistem qurduğunu dolayısı ilə bildirməsi məsələsinin ortaya çıxarılması bağlı oldu.

Sosial şəbəkədə tanınmış politoloqlardan biri bu hadisəni xatırladaraq Mehman bəyi müdafiə edənlərə bu məqamı unutmamağı tövsiyə edib: "Dörd il öncə, avqustun 2-də Azərbaycandan Rusiya prezidentinə şanlı bir məktub ünvanlanmış, başqa bir dövlətin başçısından Azərbaycanda keçiriləcək seçkilərlə bağlı dolayısıyla dəstək istənilmişdi. Hətta postsovet məkanında demokratik proseslərə ən böyük əngəl olan, istiqlalımızı, müstəqil inkişafımızı həzm edə bilməyən bir ölkənin neoimperialist başçısının ünvanına "demokratiya", "hüquqi dövlət tərəfdarı" kimi ağlasığmaz epitetlər də ifadə olunmuşdu o məktubda. Ola bilsin ki, o məktubun altındakı imzanın müəllifini kimlərsə unudub, yaxud unutmaq və unutdurmaq istəyib. Amma mən unutmamışam. Belə şeylər unudulmur. Mən də sözügedən məktubun müəllifinin - Mehman Əliyevin həbsdə olmasının tərəfdarı deyiləm. Amma 4 il öncə həmin məktuba görə müəllifi haqlı olaraq xəyanətdə suçlayanları və indi "azad media"nın müjdəçisi kimi qələmə verənləri də başa düşə bilmirəm. Bu mövqenin adı nədir? Eyni adam 4 il fərqlə necə "xəyanətkar" və "qəhrəman" olur, görəsən? Ədalətli olmaq və ədalətli olmağa çalışmaq...bunlar ayrı-ayrı şeylərdir. Mövqeyinizi və yerinizi müəyyənləşdirin, biz də işimizi bilək. Mənim üçün daha çox başqa bir dövlətin başçısından siyasi dəstək istəyən şəxs kimi bu adamın isə tez bir zamanda azadlığa qovuşmasını arzulayıram".

Facebookdakı bu yazıdan sonra söhbətin hansı məktubdan getdiyi, belə bir məktubun nə üçün hazırlandığı, göndərildiyi və içində nələrin yazıldığı barədə müzakirələr getməyə başlayıb. Araşdırmamız zamanı bəlli oldu ki, haqqında söhbət gedən məktub 2013-cü il avqustun əvvəlində o zaman prezident seçkilərində iştirak etmək adı ilə yaradılan Milli Şuranın adından hazırlanıb və bu barədə dövri mətbuatda, saytlarda məlumatlar yayılıb. Rusiya prezidenti Vladimir Putinə ünvanlanmış məktub-müraciəti Milli Şuranın İctimaiyyətlə əlaqələr komissiyasının sədri Mehman Əliyev imzalayıbmış.

Müraciətdə Rusiya prezidentindən xahiş edilir ki, dünya şöhrətli kinorejissor, yazıçı Rüstəm İbrahimbəyov Azərbaycan demokratik qüvvələrinin Milli Şurasının Azərbaycan prezidentliyinə namizədidir və onun seçkidə iştirakına Rusiya vətəndaşlığının olması imkan vermir. İbrahimbəyovun vətəndaşlığına xitam verilməsi üçün rəsmi müraciət olub. Onun vətəndaşlığına xitam verilməsi prosedurasının sürətləndirilməsi istənilir.

**Müraciətdə deyilir ki, müxalif qüvvələrin və vətəndaş cəmiyyətləri təşkilatlarının hüquqi və demokratik dövlət qurmaq ümidləri məhz bundan asılıdır. Məktubun sonunda qeyd edilir:** "Biz əminik ki, dövlət başçısı kimi bu hisslər cənab Putin, Sizə yaxındır və biz istəyirik ki, onlar Rusiyada olduğu kimi Azərbaycanda da reallığa çevrilsin".

Putinə müraciət hazırlandığı zaman da bu hadisə cəmiyyətdə ciddi rezonans doğurubmuş. **Mehman Əliyev hətta ona olan iradlara cavab da veribmiş. Mehman Əliyev Putinə müraciətin şəxsi xahişi olmadığını, müraciətin Milli Şuranın Rusiya prezidentinə rəsmi müraciəti olduğunu deyib:** "Mən, sadəcə olaraq, məndən edilən xahişi yerinə yetirmişəm və müraciətin mətnini hazırlayaraq həmin günlərdə Moskvada olan Eldar Namazova göndərmişəm".

**Araşdırma zamanı o da bəlli oldu ki, müraciətə qarşı Kremldən heç bir cavab olmayıb.**

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 180 (6794) 30 avqust 2017

**Türkiyə ilə Almaniya arasındakı gərginliyi tətikləyən daha bir açıqlama Sosial Demokrat Partiyasının (ASDP) lideri Martin Şultsdan gəlib. Deputat kansler Angela Merkelin Türkiyə siyasətini kəskin tənqid edərək onu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın "provokasiyalarına qarşı tərəddüdlü mövqe sərgiləməkdə" ittiham edib.**



# Türkiyə-Almaniya "savaşı" hara qədər davam edə bilər?

## Politoloq hesab edir ki, alman biznesi qardaş ölkəni tərk etməyəcək, Antalya sahilləri isə almanlar üçün rahat, ucuz və keyfiyyətli istirahət məkanıdır; "Almaniyanın və digər Qərb ölkələrinin siyasətinin nəticəsidir ki, Türkiyə Rusiya, İran və Çin istiqamətinə daha çox boylanmaq məcburiyyətindədir"

"Cənab Ərdoğanın bizi barmağında oynatmasını nə vaxta qədər və heç nə etmədən izləyəcəksiniz?", - Şults sual edib (axar.az). Martin Şults jurnalistlərə verdiyi açıqlamasında Türkiyədə olan alman məhbusların sərbəst buraxılmayacağı təqdirdə bu ölkə ilə gömrük anlaşmasının yenilənməyəcəyini də deyib.

Ötən ilin 15 iyulunda qardaş ölkədə dövlət çevrilişinə cəhddən sonra Türkiyə-Almaniya münasibətlərində yaranmış gərginlik hələ də qarşılıqlı "atışmalar"la davam edir. Türk əsilli alman yazıçısı Doğan Axanın İspaniyada məhz rəsmi Ankaranın tələbi ilə həbs olunması, daha sonra isə Almaniyanın tələbi sayəsində şərti olaraq azad edilməsi Ankara-Berlin münasibətlərindəki gərginliyi artırdı. Ancaq sonrakı dönəmdə Almaniya hökumətinin bir sıra davranışları Avropa Birliyində önəmli mövqeyə malik olan ölkə ilə Türkiyə arasında soyuqluğu pik həddə çatdırdı. Güman olunur ki, həm Türkiyə, həm də Almaniyada gözlənilən seçkilərin bu gərginlikdə öz "payı" var. Məlum olduğu kimi, Almaniyanın Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasına (AKP) və hökumətə yaxın şirkətlərə maliyyə dəstəyini dayandırmağı planlaşdırmasına cavab olaraq prezident Ərdoğan Almaniyada keçiriləcək kansler seçkilərində bu ölkədəki türkləri 3 siyasi partiyaya-Xristian Demokratlar, Sosial Demokratlar və Yaşıllar partiyalarına səs verməməyə çağırıb. Söhbət 3 milyona yaxın türkün yaşadığı ölkədə 1.5 milyon səsdən gedir.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a açıqlamasında dedi ki, Türkiyə ilə Almaniya arasındakı münasibətlərin gərginləşməsində Ankaranın xarici siyasət prioritetlərinin dəyişməsinin və ya Rusiya və İranla fəal dialoq içində olmasının heç bir rolu yoxdur:** "Tam əksinə, Ədalət və İnkişaf Partiyası parlament seçkisində ilk dəfə qələbə çaldığı 2002-ci ildə Avropa Birliyinə üzvlüyü qarşısına məqsəd qoymuşdu. Neçə il danışıqlar getdi. Türkiyənin indiki prezidenti və o illərdəki baş naziri Rəcəb Tayyib Ərdoğan danışıqlar prosesində fəal iştirak etdi, ölkəsinin Avropa Birliyinə üzv olması üçün əlindən gələni etdi. Ankara Avropa Birliyinin quruma üzv olması üçün bir sıra şərtlərini yerinə yetirdi. Ancaq Ankara bu şərtləri yerinə yetirdikdə qarşısında ələvə şərtləri görməyə başlada və bəlli oldu ki, Brüssel Türkiyəni birliyə üzv qəbul etməkdə maraqlı deyil, müxtəlif bəhanələrlə məsələni uzatmaqla məşğuldur". **Siyasi ekspert Avropanın ayrı-ayrı dairələrindən Türkiyədən bəhs edərkən R.T.Ərdoğan faktorunu xüsusi vurğulamasına, guya münasibətlərin nizama salınmasında onun "rolunun" olması barədə iddialarını da mənasız sayır:** "Almaniya rəsmiləri belə açıqlamalar səsləndirirlər ki, Rəcəb Tayyib Ərboğan hakimiyyətdə olduğu müddətdə Türkiyənin Avropa Birliyinə üzvlüyü mümkünsüzdür. Ərdoğan 15 ildir hakimiyyətdədir. Sual olunur: Ərdoğandan əvvəl Türkiyədə müxtəlif baş nazirlər və cumhurbaşqanları olub, o cümlədən Bülənt Ecevitin, Süleyman Dəmirəlin, Turqut Özalın və Tansu Çillərin adlarını qeyd etmək olar. Bəs onların vaxtında Türkiyənin Avropa Birliyinə üzvlüyünü əngəlləyən nə idi? Yəni Almaniya rəsmiləri bəhanə axtarırlar. Onu da demək lazımdır ki, Almaniyanın Türkiyə əleyhinə yönəltdiyi siyasəti Avropa Birliyinin əksər üzvləri arasında dəstək qazanmır. Bunu Almaniya rəsmiləri də açıq etiraf edirlər".

**E.Şahinoğlu xatırlatdı ki, Almaniya Türkiyə əleyhinə ard-arda addımlar atır. Bununla bağlı konkret faktlardan da bəhs etdi:** "Birincisi, Türkiyənin Avropa Birliyinə üzvlüyünün ən qatı əleyhidarı məhz Almaniyadır. Heç Avropa İttifaqının ikinci böyük dövləti olan Fransa Almaniya qədər Türkiyə əleyhidarı deyil. İkincisi, Almaniya illərdir Türkiyə və türk əleyhidarlarının məskunlaşma yerinə çevrilib. Minlərlə PKK terrorçusu Almaniyada rahat yaşayır, Türkiyədə insanları qətl edən təşkilata maliyyə və hərbi dəstək verirlər. Almaniya Türkiyədə ötən il çevriliş cəhdi həyata keçirmək istəyən və 250 nəfərdən çox insanın qətlinə yol açan Fətullah Gülənin şəbəkəsi üçün də ən rahat məskəndir. Üçüncüsü, Almaniya parlamenti "erməni soyqırımını" tanıyan qətnamə qəbul etdi. Halbuki Almaniyada Fransadakı qədər erməni yaşamır ki, deyəsən ki, bunu Berlinə kənar güc məcbur etdi. Almaniya bu ölkədə yaşayan 4 milyona yaxın türkü görməzlikdən gələrək Ermənistanı və dünyadakı erməni lobbisini sevindirdi. Dördüncüsü, Almaniya rəsmiləri türkiyəli rəsmilərin səfərlərinə məhdudiyyət qoyub. Avropanın heç bir başqa ölkəsində Türkiyə əleyhinə bu qədər addım atılmayıb və bu addımların Ərdoğanla əlaqəsi yoxdur. Türkiyənin prezidenti Ərdoğan deyil, bir başqası olsaydı, həmin şəxs Almaniyada PKK və digər terrorçu qrupların uzantılarına seyrçimi qalacaqdı, onların təhvil verilməsi tələbini səsləndirməyəcəkdimi? Bəli, Ərdoğanın üslubu sərtdir, bəzən açıqlamaları kəskinliyi ilə fərqlənir. Ancaq əsas mahiyyət bundan ibarətdir ki, Türkiyədə hakimiyyətdə kimin olmasından asılı olmayaraq Berlin nə PKK-çıları Türkiyəyə təslim edəcək, nə də qardaş dövlətin Avropa Birliyinə yolunu açacaq".

**Politoloq bu iki ölkənin hakimiyyətlərinin dəyişəcəyini güman etmir:** "Yaxın illərdə Almaniyanın kansleri Angela Merkel, Türkiyənin prezidenti Rəcəb Təyyub Ərdoğan olacaq. Hər ikisi böyük ehtimalla onları gözləyən növbəti seçkilərdə qələbə çalacaqlar. Bu isə o deməkdir ki, iki dövlət arasında münasibətlərin normallaşacağını gözləmək problematikdir ".

**E.Şahinoğlu qeyd etdi ki, Almaniya Türkiyə və türk əleyhdarlarını Ankaraya təhvil vermək istəmir:** "Bunun qarşılığında da bir neçə alman terrorçulara dəstək maddəsilə Türkiyədə həbs olunub. Türkiyə Berlindən terrorçuları iadə etməyi tələb edəndə Almaniya hökuməti "Bizdə məhkəmələr müstəqildir, onların qərarlarına qarışa bilmərik" iddiasını irəli sürür. Berlin də Ankaraya "Bizim vətəndaşları azad edin" deyəndə Türkiyə hökuməti də eyni arqumenti irəli sürür: "Bizdə də məhkəmələr müstəqildir, onların qərarlarına qarışa bilmərik". Bu vəziyyət hələ bir müddət dəyişməz qalacaq. Almaniyanın və digər Qərb ölkələrinin siyasətinin nəticəsidir ki, Türkiyə Rusiya, İran və Çin istiqamətinə daha çox boylanmaq məcburiyyətindədir".

❑ **E.PAŞASOY**

# Şimali Koreya Yaponiyanı "vurdu"- dünya həyəcan təbili çalır

## Əhəd Məmmədli: "Şimali Koreyadakı kommunist rejimini ABŞ öz dövlət maraqlarına təhlükə görmür"



**Şimali Koreya Yaponiya istiqamətində raket buraxıb. Virtualaz.org RİA Novosti-yə istinadən xəbər verir ki, raket Yaponiyanın şimal-şərq bölgəsi üzərindən Sakit okean istiqamətində uçub.**

Naməlum tipli raket Sunan şəhəri yaxınlığından buraxılıb.

Cənubi Koreya hərbçiləri raketin Yaponiya üzərindən uçduğunu təsdiqləyib. Yaponiyanın baş naziri Sindzo Abe bəyan edib ki, Şimali Koreyanın keçirdiyi ballistik raket sınaqları ilə əlaqədar BMT Təhlükəsizlik Şurasının təcili iclasının çağırılmasını tələb edirlər.

Ekspertlər proseslərin bu şəkildə davamının dünya üçün ciddi təhlükələr yarada biləcəyini qeyd edirlər. Şimali Koreya hökumətinin bu mövqeyinin birbaşa Amerikaya qarşı olduğu bildirilir. Uzun illərdir ki, Birləşmiş Ştatlar Şimali Koreyaya nüvə silahı ilə bağlı təzyiq edir, bu ölkə isə rəsmi Vaşinqtonun hədələrinə nəinki məhəl qoymur, əksinə, dünya üçün təhlükəli olan silahların icadına və sınaqdan keçirilməsinə davam edir. Şimali Koreyanın dirənişinin Qərb dünyasının nüfuzuna getdikcə ciddi zərbə vurduğu açıq şəkildə görünməkdədir.

**Politoloq Əhəd Məmmədli bu cür halların ilk dəfə baş vermədiyini qeyd etdi:** "Koreya bu cür güc göstəricisini dəfələrlə edib. Hətta Koreya raketləri bütün Yaponiya ərazisinin üstündən uçuşlar da edib. Yəni bu cür hallar birinci dəfə baş vermir. Şimali Koreyada kommunist rejimi qurulandan daima xalqını ABŞ, Yaponiya, Cənubi Koreya qorxusu ilə idarə edib. Ona görə də düşünmürəm ki, növbəti raket sınaqlarından sonra dərhal ciddi nəsə, yəni müharibə baş verəcək. Ənənəvi olaraq BMT Şimali Koreyanın raket sınaqlarını pisləyəcək və bununla məsələ bitəcək. Çünki Şimali Koreyadakı kommunist rejimini ABŞ öz dövlət maraqlarına təhlükə görmür. ABŞ üçün hazırda ən böyük təhlükə İslam coğrafiyasında siyasi İslamın təntənəsidir. Ona görə Əfqanıstanda ordusunu saxlayır, İraq və Suriyada kürdlərə dəstək verir və s. Şimali Koreyanın özünü belə aparması nüvə silahına malik olması ilə bağlıdır. Çünki Çin vaxtilə SSRİ kimi Şimali Koreyaya görə ABŞ-la müharibə edən deyil. Bunu koreyalı kommunistlər yaxşı bilir. Təbii ki, Çin çalışacaq ABŞ Şimali Koreyanı işğal etməsin, amma bu baş versə Amerika ilə açıq savaş müstəvisinə düşünürəm ki girməyəcək. Şimali Koreyanın əsas güvənc yeri nüvə silahına sahiblənməsidir. Vaxtında bunun qarşısını almaq lazım idi. Çin bilərəkdən Şimali Koreyaya nüvə ölkəsi olmaqda kömək etdi ki, ABŞ Yaxın Şərqdə olduğu kimi, Uzaq Şərqə asanlıqla müdaxilə edə bilməsin. Və bunu da Çin bacardı".

**Politoloq bütün bunların Yaponiyanı qorxutmaq üçün həyata keçirildiyini düşünür:** "Yaponiyanı qorxutmaq üçün dəfələrlə bu cür raketlər sınaqdan keçirilib. Əgər buna indiyə qədər ABŞ müdaxilə etməyibsə, deməli, ehtiyac görməyib. Çünki balaca Şimali Koreyadaki kommunist rejimi ABŞ maraqlarına böyük ölçüdə təhlükə deyil və ola da bilməz. ABŞ-ın indi əsas baş ağrıları Rusiya, Türkiyə, İrandır, yəni Şərqi Avropa və Yaxın Şərq. Amma düzdür ağılsızlıq və ya da ehtiyatsızlıqdan Şimali Koreya Cənubi Koreya və Yaponiya ərazisinə ciddi zərbə endirsə, onda ABŞ məcbur olacaq müttəfiqlərini qorusun. Belə olan halda çox qısa müddətdə Şimali Koreyanın kommunist rejimi məhv ediləcək və heç kəs də, o cümlədən nə Çin nə də Rusiya Koreya rejimini müdafiə edən deyil. Yəni üçüncü dünya savaşı baş verməyəcək. BMT Amerikanın razılığı və tapşırığı olmasa, Şimali Koreya əleyhinə heç bir ciddi qərar verən deyil. BMT çoxdan dişsiz bir quruma çevrilib. Və bu qurumu bu günə salan da məhz ABŞ olub. BMT-nin qərarını gözləmədən ürəyi istədiyi ölkələrə hərbi müdaxilə etdiyi zaman Amerika BMT-nin dünyadakı imicinə ciddi xələl gətirdi. Son illərdə BMT heç bir münaqişə ocağını həll edə bilmir. Çünki anormal idarəçiliyə malikdir. Təhlükəsizlik Şurasının daimi 5 üzvündən biri hansısa məsələ və ya qərara veto qoyduqda həmin qərar qəbul olunmur. Biz bunu son illərdə Suriya, İran, Şimali Koreya və Ukrayna problemlərində görürük. Nə vaxta qədər ki, bu cür anormal idarəetməyə son qoyulmayacaq, veto məsələsi hüququnda pozitiv dəyişikliklər edilməyəcək, BMT-nin Təhlükəsizlik Şurasına yeni daimi üzvlər qəbul edilməyəcək, o zamana qədər BMT dişsiz təşkilat olaraq qalmaqda davam edəcək".

❑ **Cavanşir ABBASLI**

**ABŞ ATƏT-in Minsk Qrupundakı səfirini yenilədi. Cəmi 8 ay həmsədr postunda işləyən Riçard Hoqlandı bundan sonra Endrü Şofer əvəzləyəcək. Dövlət Departamentinin bununla bağlı yaydığı məlumatda deyilir ki, "Cənab Şofer Avropada və beynəlxalq təşkilatlarda qazandığı böyük iş təcrübəsini özü ilə birlikdə bu vəzifəyə gətirəcək".**



Endrü Şofer

"Birləşmiş Ştatlar əvvəlki kimi qəti şəkildə Minsk Qrupu prosesinə və Dağlıq Qarabağ münaqişəsinin dinc yolla və davamlı nizamlanmasına müvəffəq olmaqda tərəflərə kömək göstərməyə tərəfdardır", - deyə ABŞ xarici siyasət idarəsinin bəyanatında qeyd olunur. O da bildirilir ki, rəsmi Vaşinqton Qarabağ münaqişəsinin beynəlxalq hüququn, o cümlədən Helsinki Yekun Aktının norma və prinsipləri əsasında ədalətli həllini dəstəkləyir. "ABŞ Endrü Şofer tərəflərin bu məqsədə çatmalarına kömək etməyə ümid bəsləyir" - sənəddə bildirilir.



# İrəvanda Sərkisyan rejiminə qarşı tələbə etirazları başlayır

**Erməni tələbələr tərəfindən facebook sosial şəbəkəsində "Ölkəmizin sahibi bizik" təşəbbüsü ilə "dərs və iş tətili" adlı event yaradılıb. Erməni KİV-n yazdığına görə, eventdə, digər sahələrdə olduğu kimi, sentyabrın 1-dən etibarən orta məktəblərdə və ali təhsil müəssisələrində tətillərə başlamaq təklif olunur.**

Bildirilir ki, Ermənistanda tələbələrin genişmiqyaslı aksiyası sentyabrın 1-dən mütəşəkkil hal alacaq. Etirazçı tələbələr meydanda aksiyanı sistemləşdirmək üçün hər fakültədən bir qrup təşkil edəcəklər. Təşəbbüs qrupu etirazçıları axşam saatlarında "Azadlıq" meydanına toplaşmağa, hakim rejimin cinayətlərinə qarşı çıxış etməyə çağırıb.

Xatırladaq ki, "Sasna Tser hərəkatı"nın əsas hissəsini gənclər, tələbələr, məktəblilər və iş adamları təşkil edir. Hazırda sosial-iqtisadi baxımdan gərgin vəziyyətdə olan Ermənistanın hakim rejiminə məktəbli və tələbələrin qarşı çıxması hərəkatın getdikcə güclənəcəyini göstərir.

Onu da xatırladaq ki, İrəvanda artıq 154 vəkil aclıq aksiyasına başlayıb. Onlar məhkəmə zalına girişdə üzərlərində aparılan yoxlamalara etiraz edirlər. Bildirirlər ki, bu cür davranış nəinki qeyri-qanuni, həm də təhqiredicidir.




# Həmsədrləri deyil, yanaşmanı dəyişmək - Qarabağda sülhün əsas şərti

## Böyük müharibədən qaçmağın yolu daimi və ədalətli sülh anlaşmasıdır, nəinki müvəqqəti və məcburi atəşkəs; Dağlıq Qarabağ probleminin həllində açar söz - "işğal"dır, "kompromis" yox; **politoloq:** "Ermənilər hazırda başlarını iki sual üzərində sındırırlar..."

Bu ümidlərin nə dərəcədə reallaşacağını isə yəqin ki, zaman göstərəcək. Ancaq hələ ki nikbinlik üçün ciddi əsas görünmür. Çünki Güney Qafqazın ən "uzunömürlü" konfliktinin nizamlanması üçün indiyədək edilən təşəbbüslərin heç biri real dönüşə gətirməyib. Əsas səbəb də işğalçı Ermənistanla bu günədək işğalçı kimi davranılmaması, hətta onu razı salmağa çalışılmasıdır; yaxud münaqişə tərəflərinə bərabər gözlə baxılmasıdır.

Əgər belə yanaşma davam edəcəksə, o zaman yeni həmsədrin səyləri də əvvəlkilər tək boşuna gedəcək. Dağlıq Qarabağa dair danışıqlarda pozitiv dəyişiklik əlçatmaz olaraq qalacaq. Çünki Azərbaycan heç vaxt öz torpaqlarının siyasi alver (mübadilə) predmeti olmasına razılıq verməyəcək.

*****

Qısası, Qarabağ münaqişəsinin nizamlanmasından ötrü həmsədrləri yox, mövcud yanaşmanı dəyişmək lazımdır. Problemin həllində açar söz də nə status məsələsidir, nə də "kompromis", açar söz - əlbəttə ki, "işğal"dır. Münaqişə zonasında yeni və daha böyük hərbi toqquşmadan qaçmağın tək yolu məhz bu faktdan çıxış edib də Azərbaycanın beynəlxalq hüquqla təsbit edilmiş ərazi bütövlüyü məsələsini öndə tutmaqdır. Yalnız bu yolla müharibəni həmişəlik istisna edən daimi sülhə çatmaq mümkündür, nəinki müvəqqəti və kövrək atəşkəs rejimi ilə.

Bundan ötrü təbii ki, işğalçı tərəfə - Ermənistana öz layiqli yeri göstərilməlidir. Məhz həmsədrlər öz dövlətləri adından İrəvana anlatmalıdırlar ki, əgər rəsmi İrəvan öz xalqı üçün gerçəkdən də daimi və ədalətli sülh arzusundadırsa, Ermənistanın, erməni xalqının tərəqqisini və rifahını istəyirsə, nəhayət, konstruktiv mövqe tutmalı, ölkəmizə qarşı qeyri-mümkün tələblərdən əl götürməli, Azərbaycan torpaqlarını Azərbaycan torpaqlarına dəyişib "sülhə nail olmaq" kimi xülyadan əl çəkməlidir.

Təəssüf ki, cinayətkar Sərkisyan rejiminin hakimiyyətdə olduğu Ermənistan konstruktivliyi yaxına buraxmaq niyyətində deyil. Əksinə, hətta erməni ictimai şuruna işğal altındakı ərazilərin "azad olunmuş ərazilər" kimi sırınması yönündə absurd və təhlükəli təbliğat davam edir. Aydındır ki, belə təbliğat davam etdikcə, Ermənistanı həqiqi sülhün vacibliyinə inandırmaq azan olmayacaq - hərçənd, erməni ictimai fikrində adekvat düşünənlər də var.

Lakin onlar azlıqda olduğu üçün situasiya dəyişməz qalır. Onların çoxluqda - dominant olması isə həm də vasitəçi dövlətlərin İrəvana təsirindən asılıdır. Bu da, təkrar edirik, Ermənistanın konfliktdəki işğalçı statusunu daim rəsmi İrəvana anlatmaqdır. Sözsüz ki, bu yöndə çox şey Ermənistanın əsas havadarı Rusiyadan asılı olaraq qalır.

*****

**Lakin bəzi siyasi müşahidəçilərə görə, bu istiqamətdə xəfif də olsa müəyyən müsbət dinamika sezilməkdədir.**

**"Ermənistan illərdir işğal etdiyi Azərbaycan torpaqlarını qaytarmayacağına arxayın idi və bu yolda Rusiyaya ümid edirdi, ancaq bu ümidlər artıq puç olur". Bu barədə axar.az-a açıqlamasında politoloq İlqar Vəlizadə danışıb. Konfliktoloq müharibə başlayacağı təqdirdə Rusiyanın açıq-aşkar ermənilərə dəstək verməyəcəyini düşünür.**

"İş orasındadır ki, Azərbaycan öz torpaqlarını işğalçılardan boşaltmaq qərarına gəlsə, burada Rusiya aciz olacaq və birbaşa müdaxilə edə bilməyəcək. Eyni zamanda danışıqlar prosesində mərhələli həll planından daha çox danışılır. Bu isə erməni cəmiyyətində illərlə möhkəmlənən fikirləri sarsıtmağa başlayıb. İrəvan bu və ya digər şəkildə yaranmış vəziyyətdə nəsə etməyə çalışır. Ermənistan rəsmiləri və siyasi fəallları artıq açıq şəkildə dilə gətirirlər ki, torpaqları Azərbaycana qaytarsınlar və bunun qarşılığında Dağlıq Qarabağın "müstəqilliyi" tanınsın. Fikir verin, əvvəllər bu fikirləri çox səsləndirmirdilər. Beynəlxalq ictimaiyyət və həmsədrlərin son açıqlamaları da göstərir ki, bu varinat predmetli şəkildə müzakirə edilir və danışıqların növbəti mərhələsində konkret göstərilmədir. Həmsədrlər çox yaxşı başa düşürlər ki, Azərbaycanın tələbi nəzərə alınmadan danışıqlar prosesini aparmaq olmaz" - politoloq qeyd edib.

Onun sözlərinə görə, bu fonda Ermənistan cəmiyyəti hazırda böyük təşviş içərisindədir və ölkə rəhbərliyinə qarşı tələblər güclənir. "Ermənilər hazırda başlarını iki sual üzərində sındırırlar: Ermənistan bu 25 il ərzində nəyə nail oldu və bu mübarizə, verilən itkilər nəyə lazım idi? Bax, bu suallar açıq olaraq qalır", - deyə o əlavə edib.

*****

Doğrudan da, bu gün erməni toplumunun cavab tapmalı olduğu əsas sual budur ki, ötən müddətdə o, iztirablar, kütləvi emiqrasiya, səfalət və blokadadan başqa nəyə nail olub? Məgər hələ də aydın deyilmi ki, kriminal Sərkisyan rejimi - hakimiyyəti 19 ildir zəbt eləmiş "Qarabağ klanı", "müharibə partiyası" ölkəni və erməni xalqını hara aparır? Şərin yarısından da qayıtmaq xeyirdir deyirlər. Qayıdacaqlarmı?

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 180 (6794) 30 avqust 2017



# İŞİD-in çökdürülməsi-təhlükə bitdi, yoxsa indi başlayır?

## İlham İsmayıl: "Onun çox böyük sayda olan üzvləri ərazilərini itirdikcə, dünyanın başqa yerlərinə səpələnəcəklər"

**İŞİD lideri Əbubəkr əl-Bağdadinin iyunun sonlarında ölüm xəbərinin yayılmasından sonra bu təşkilatın zəifləməsi və ələ keçirdiyi əraziləri itirməsi prosesi sürətləndi. Neçə illərdir Suriya və İraqın bir çox ərazilərinə sahiblənmiş bu amansız təşkilatın sarsıldığı bəyan edilir. ABŞ-ın müdafiə naziri ötən həftə açıqlamasında bəyan etdi ki, İŞİD-in sonuna sayılı günlər qalıb. Artıq İŞİD özünə paytaxt elan etdiyi Rakkanı, Mosulu əldən verib. Nəzarətində demək olar ki, heç bir iri şəhər qalmayıb. Beynəlxalq koalisiya qüvvələrinin dəstəyi ilə Suriya və İraq ərazilərini İŞİD-dən azad etməkdədir. Proses belə dava etsə, İŞİD-ə İraq və Suriyada son qoyulacaq.**

Hazırkı vəziyyətə baxdıqda belə düşünmək olar ki, İŞİD İraqda və Suriyada sıradan çıxarılır. Amma başqa versiyalar da var. Bunlardan biri də İŞİD-in yeni münaqişə bölgələrində ortaya çıxması ilə bağlıdır.

Bunlardan biri də Mərkəzi Asiya və ya Əfqanıstandır. Son bir ildə Əfqanıstanda İŞİD xeyli fəallaşıb, bir sıra əraziləri ələ keçirib. Qruplaşma Əfqanıstanın şimalında Türkmənistanla sərhəddə yerləşən Cauzcan əyalətinin Derzabe rayonunu ələ keçirib. Yəni artıq qruplaşma Türkmənistan, Orta Asiya sərhədlərinə yetişib. MDB Antiterror Mərkəzinin rəhbəri Andrey Novikov hələ üç ay öncə BMT-də çıxışı zamanı deyib ki, Əfqanıstan-Pakistan, Suriya və İraqdakı silahlı münaqişələrdə iştirak edən Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Rusiya, Tacikistan və Özbəkistan vətəndaşları real hərbi hazırlıqdan sonra artıq MDB ərazisinə qayıtmağa başlayıblar. Rusiya rəsmisi deyib ki, terrorçular sayəsində Şimali Qafqaz, Azərbaycan və Mərkəzi Asiyadakı İŞİD hücrələri güclənib. Hazırda MDB ölkələrinin 7 min vətəndaşının terrorçu və ekstremist qruplaşmalara üzvlüyə görə axtarışda olduğunu, onlardan 2 min nəfərinin aktiv döyüş bölgələrində iştirak etdiyini qeyd edib.

Bundan başqa, İŞİD-in Afrikada, Nigeriyada və Misirdə, eləcə də Yəməndə hələ də böyük ərazilərə nəzarət etdiyi deyilir. Bu mənada İŞİD-in İraqda və Suriyada məhv edilməsi onun tamamilə sıradan çıxması ilə nəticələnə bilməz. Ehtimal ki, qruplaşma varlığını yeni bölgələrdə davam etdirməyə çalışacaq.

**Bu barədə danışan "Təhlükəsizlik Araşdırmaları" Mərkəzinin rəhbəri, sabiq MTN polkovniki İlham İsmayıl "Yeni Müsavat"a bildirdi ki, İŞİD doğrudan da zəiflədilib. İŞİD-in zəifləməsinin səbəbləri var. Səbəblərindən biri odur ki, dövlətlər üçün İŞİD-dən istifadə etapı artıq xeyli dərəcədə keçib. Amma bu gün İŞİD-in tamamilə sıradan çıxarılacağı, yox ediləcəyini söyləmək mümkün deyil:** "Bu terror təşkilatı indiyə qədər mövcud olmuş terror təşkilatları sırasında ən güclüsü, ən fərqlisidir. İŞİD, sadəcə, haranısa partladıb çıxıb getməyib, ərazilər tutub, şəhərlər, kəndlər ələ keçirib, özünə paytaxt seçib, özünü dövlət elan edib. Onun birdən-birə yox olması çətin olacaq. Hazırda zəifləyib və zəifləmə, sarsılma davam edəcək, əllərində olan əraziləri itirəcək. Amma onun çox böyük sayda olan üzvləri ərazilərini itirdikcə, dünyanın başqa yerlərinə səpələnəcəklər və lazım olanda yenə də birləşəcəklər, yenə də hansısa bir böyük layihədə istifadə olunacaqlar.



Səpələnmiş İŞİD döyüşçülərinin Qafqaza da gələcəkləri bəllidir. Çünki Qafqazdan, Azərbaycan vətəndaşlarından da İŞİD-də olanlar var. Başqa yerlərlə müqayisədə çox olmasa da bizim üçün çoxdur. Hətta bir neçə nəfərin də geri qayıtması potensial təhlükədir. İŞİD-çilərin daha çox Şimali Qafqaza gəlmək ehtimalı var. Ona görə ki, Şimali Qafqazdan çox sayda insanlar İŞİD sıralarındadır. Zaman-zaman onsuz da biz Şimalı Qafqazdan olan radikal islamçılardan ciddi əziyyətlər çəkmişik. İndi problem yenidən arta bilər. Şimali Qafqaza geri qayıdan İŞİD-çilərdən gələcəkdə Cənubi Qafqaz ölkələrinə qarşı istifadə oluna bilər. Odur ki, İŞİD-in zəifləməsi, dağılması, üzvlərinin itirdikləri ərazilərdən çəkilib səpələnməsi təhlükənin ikinci etapını yaradır. O adamlar səpələndikləri yerlərdə bir müddətdən sonra özlərini göstərmək üçün addımlar ata bilərlər. Ona görə də ayıq-sayıqlığımız bəlkə də İŞİD-in güclü olduğu dövrlərdəkindən daha ciddi olmalıdır. İŞİD zəifləyəndən sonra biz daha ayıq-sayıq, tədbirli olmalıyıq".

İŞİD məsələsinin dünya müharibəsinə qədər gətirib çıxaracağı barədə bir zamanlar iddialar da irəli sürülürdü. Artıq bu təhlükənin aradan qalxdığını söyləmək olarmı, yoxsa əksinə?

**İlham İsmayıl qeyd etdi ki, Üçüncü Dünya müharibəsi bəlkə də İŞİD olmasaydı, daha çılpaq və ciddi şəkildə baş verərdi:** "O mənada ki, atom bombası qorxusu dünya müharibəsindən çəkindirici faktordur, terror isə müharibəni əvəz eləyən faktordur. İri dövlətlər arasında münasibətlər o qədər gərginləşmişdi, qütbləşmə o qədər artmışdı ki, bu, faktiki gətirib İŞİD-ə çıxardı. Ərəb baharından sonra İŞİD-in fəaliyyətə başlaması, torpaqlar tutması öz-özünə deyildi. Hansısa dövlətlərin köməyi olmadan bunu hansısa radikal qrupun əldə etməsi qeyri-mümkün idi. İŞİD bir təzyiq vasitəsi oldu. Üçüncü Dünya müharibəsi beləliklə hibrit şəkildə baş verdi və davam edir. İŞİD səpələndikcə də davam edəcək və artacaq".

❑ Etibar SEYİDAĞA

# Myanmada kütləvi müsəlman qırğını




## Sabir Rüstəmxanlı: "Siyasiləşmiş bir din artıq öz dindaşının mənafeyini qorumur"

**Myanmada müsəlmanlara qarşı ordunun törətdiyi dəhşətli qırğın dünyanın gündəmində yer alan əsas məsələlərdən birinə çevrilib. Təkcə son günlərdə 3 mindən çox müsəlman vəhşiliklə qətlə yetirilib. İslam ölkələrinin bu məsələdəki susqunluğu hiddətlə qarşılanır.**

Qeyd edək ki, Myanmada 2016-cı ildə Nobel mükafatı laureatı Aun Sanın hakimiyyətə gəlişindən sonra müsəlmanlara qarşı törədilən qırğınlar kütləvi hal alıb. Təsadüfi deyil ki, onun hakimiyyətdə olduğu bir il ərzində 100 mindən çox müsəlman öldürülüb. Amma bütün bunlara rəğmən bir İslam ölkəsinin bu məsələyə açıq şəkildə mövqeyinin şahidi olmuruq. Doğrudur, son hadisələrdən sonra hər zaman olduğu kimi, yenə də qardaş Türkiyə faciəyə öz sərt mövqeyini nümayiş etdirib. Prezident Rəcəb Tayyib Ərdoğan qətliama bu cür mövqe bildirib: "Dünya Myanmadakı qətliam qarşısında kar və kordur. Eşitmir, görmür. Bu son olaylar daha da acınacaqlı bir hadisədir. Gələn rəqəmlər təəssüf ki, 3 minə yaxın insanın öldürülməsi yönümündədir. Əlbəttə, bu məsələni ağır, şiddətli bir şəkildə pisləyirik. Bu məsələni bütün beynəlxalq təşkilatların, BMT-nin qarşısında qaldıracağıq".

Görünən odur ki, bir İslam ölkəsindən başqa digərləri qətliam qarşısında susurlar. Halbuki İran, Səudiyyə Ərəbistanı kimi dövlətlər özlərini müsəlman dünyasının "ağası" saysalar da, bu tipli hadisələrə mövqe bildirməkdə aciz görünürlər. Təkcə dünya siyasətinə təsir gücü olan iri müsəlman dövlətlərinin deyil, kiçik müsəlman ölkələrinin də belə hadisələrə sərt mövqe sərgiləmələri çox vacibdir. Myamadakı müsəlman qətliamı İslam ölkələri arasında birliyin olmamasını bir daha önə çıxarıb.



**VHP sədri, xalq şairi Sabir Rüstəmxanlı ara-sıra Myanmada baş verən hadisələrdən xəbər tutduğunu söylədi:** "Bu çox böyük faciədir. Oradakı xalqların milli, dini qarşıdurmalarının səbəblərini dərindən öyrənmək çox vacibdir. Amma hər halda, istər tarixi, istərsə də müasir səbəblər heç bir şəkildə insan qırğınına yol aça bilməz. Bunların qarşısı mütləq alınmalıdır. İslam dövlətlərinin bu məsələdəki susqunluğuna gəlincə, təəssüflər olsun ki, bu tipli dövlətlərin bir çoxunda İslam həmrəyliyi, təəssübkeşliyi yoxdur. Bu, sadəcə, kağız üzərində, sözdədir. Bir toplantı olanda hamısı dəbdəbə ilə gəlir, danışır, amma bu ciddi bir məsələyə çevrilmir. Qarabağ məsələsində İslam Konfransı Parlament İttifaqı bizi dəstəkləyir, Ermənistanı işğalçı kimi tanıyır, amma konkret işə gələndə irəli atılacaq bir addımın olmadığını görürük. İslam artıq bir çox ölkələrdə özünün dini dəyanətini, vicdan dəyanətini itirib, vicdanlı olmaqdan uzaqlaşıb. Din siyasətin alətinə, quluna çevrilib. Din dövlət aparatına, idarəçilik mexanizminə çevrilib. Belə olan halda siyasiləşmiş bir din artıq öz dindaşının mənafeyini qorumur, dindaşı haqqında düşünməkdənsə, öz siyasi maraqları haqqında düşünür. Belə olanda da bu cür anlaşılmazlıq, ziddiyyətlər meydana çıxır".

**S.Rüstəmxanlı Azərbaycan tipli kiçik müsəlman dövlətlərinin də belə məsələlərdəki susqunluğuna bu cür şərh verdi:** "Dünyada gedən proseslər bu müsəlman, yaxud xristian ölkəsidir müstəvisini çoxdan çıxarıb. Burada ədalətdən söhbət gedirsə, insanlar öldürülürsə, bunun müsəlman, yaxud xristian olmasının önəmi qalmır, buna dərhal reaksiya verilməlidir. Bəzi dünya birlikləri var, burada BMT, Avropa Şurası kimi qurumların adlarını çəkə bilərik. Bunların hər biri bu cür qətliamlara münasibət bildirə bilərlər. Bu qurumlar ailəni xatırladır və ailənin üzvü kimi Azərbaycan kimi ölkələr də belə faciələrə münasibət bildirə bilərlər. Azərbaycan kimi torpaqları işğal olunmuş, bir milyondan artıq məcburi köçkünü olan ölkələr belə dəhşətli hadisələrdə daha sərt mövqe tuta bilərlər. Nəyə görə dünyadakı müsəlmanlara bu cür sərt münasibət var? Bunun səbəblərini həm də müsəlmanların özlərində axtarmaq lazımdır. Harada yaşamasından asılı olmayaraq, müsəlmanlar sivilizasiyaya qovuşmaq, dünyanı dərk etmək, yeni texnologiyalara sahiblənmək, demokratik cəmiyyət qurmaq, İslam cəhalətindən uzaqlaşmaq, yeni dünyanın tələblərinə uyğun həyat tərzi keçirmək üzərində düşünməlidirlər. O zaman müsəlmana qarşı dünyada olan bu soyuqluğun, ikili münasibətin qarşısı alınar. Müsəlman ilk növbədə, özünə hörmət qazanmaq, onun maraqlarının nəzərə alınması üzərində düşünməlidir. Elə yaşamalıdır ki, ona hörmət bəsləsinlər".

❑ Cavanşir ABBASLI

**Günün ən maraqlı xəbəri heç şübhəsiz ki, Naxçıvandan gəldi. Məlum oldu ki, artıq Naxçıvanda oxunması zəruri olan kitabların siyahısı müəyyənləşdirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov bununla bağlı müvafiq sərəncam imzalayıb. Sərəncama əsasən gənc nəsildə vətənpərvərliyin, tarixə, milli kökə bağlılığın və dünyagörüşünün formalaşdırılmasına xidmət edən "Oxunması zəruri olan kitabların siyahısı" təsdiq edilib.**



# Bu ölkələrdə elə qəribə qanunlar və yasaqlar var ki...

## Dünyadakı əcaib və gülməli qadağalar haqda nə bilirik?

Bu məlumat isə bizə dünyadakı ən ilginc qərarların siyahısını araşdırmaq zərurərti yaratdı. Bəli, söhbət əsrlər öncə kralların, padşahların yasaqlarından, əcaib qərarlarından getmir. 21-ci əsr dünyasında nələrə icazə var, nələrə yoxdur, kim nəyi qadağan edib və niyə?..

Bütün bunlar bizimçün də maraqlı gəldi. Araşdırdıq və ortaya aşağıdakı mənzərə çıxdı.

**Amerika - qadağam, yasağım, qəribə qaydalarım mənim...**

Axtarışlarımız zamanı öyrəndik ki, yasaqların, qadağaların vətəni Amerika imiş. İlahi, "demokratiyanın beşiyi" adlanan bu ölkənin ayrı-ayrı ştatlarında, şəhərlərində bir-birindən fərqli o qədər qəribə qaydalar-qanunlar var ki. Məsələn, ABŞ-ın Hollivud şəhərində xüsusi qərarla şəhərin küçələri ilə 2000-dən artıq qoyun sürüsünün otarılması qadağan edilir. Yəni 1999 qoyunla küçəyə çıxmaq olar, bu, qanun pozuntusu sayılmır.

Böcəklər də daxil olmaqla, heç bir canlının öldürülməsinə icazə verilməyən ABŞ-ın Arkanzas ştatında ərin arvadı ayda bir dəfə döyməsinə normal baxılır. Bu bölgədə həyat yoldaşını ayda bir dəfədən artıq döymək isə qadağandır.

Kaliforniyanın Sakit okean sahillərində kəpənəklərin narahat edilməsinə icazə verilmir.

ABŞ-ın Ohayo ştatında polislər itləri xəbərdarlıq etmək məqsədilə dişləyə bilərlər.

Pensilvaniyada hamamda mahnı oxumaq və qapısı açıq olan soyuducunun qarşısında yatmaq, Oklohomada ayaqqabı ilə yatmaq, Nyu-Cersidə şorbanı səsli içmək qəti qadağandır.

İndianada vətəndaşların kiminsə dalınca danışmasına, bərbərlərin uşaqların qulağını kəsməsinə icazə verilmir. Bu ştatda həmçinin meymunların siqaret çəkməsi və teatra getməmişdən 4 saat əvvəl sarımsaq yeməyi qadağandır.

Alyaska ştatında da maraqlı qadağalar var. Bu ştatda təyyarədən maralların şəklini çəkmək olmaz. Bir maralı hərəkətdə olan bir təyyarədən aşağı atmaq qadağandır. Marala spirtli içki verməyin cəzası həbsdir.

Atlantada zürafəni telefon köşkünə bağlamaq qanun tərəfindən qadağan edilir. Kaliforniyada parkda hovuzda velosiped sürmək qadağandır.

Floridanın Pensakolada şəhərində yerli sakin əgər cibində on dollardan az pul varsa, qaxılıb evdə oturmalıdır - şəhərə çıxa bilməz.

İndiana ştatında teatr tamaşaçılarına qarşı əcaib yasaqlar var. Burada seansdan 4 saat öncəyə qədər tamaşaçıların sarımsaq yeməsi yasaqlanıb. Bu, həm digər tamaşaçılara, həm də sənətçilərə hörmətsizlik sayılır. Florida ştatında isə gözəllik salonları maksimum diqqətli olmalıdır. Çünki burada saç qurutma maşınının altında yuxuya dalan qadını da, salon sahibini də böyük məbləğdə cərimə gözləyir. Yəni, gözəllik salonunda yatmaq olmaz.

Los-Ancelesdə isə müttəhim kürsüsündə ağlamaq olmaz. Texas əyalətində U dönüşü adlandırılan, nəqliyyatdakı vacib manevri etmək yasaqlanıb. İndiana ştatında evdə içki içməyə icazə yoxdur. İnsanlar ancaq bəlli məkanlarda - barlarda, restoranlarda bu ehtiyaclarını ödəyə bilər. Texasda diqqəti cəlb edən daha bir yasaq isə inək südü ilə bağlıdır. Əyalət sakinləri əsla başqasının inəyinin südünü içə bilməz. Təkcə inək südünümü? Texasda pivə içənlər üçün də əcaib yasaqlar var. Bu əyalətdə insanlar ayaq üstə pivə içmək arzusuna düşüblərsə, ancaq üç qurtum içə bilirlər. Dördüncü qurtum yasaqdır - onu ancaq oturaraq içmək olar.

**Avropadakı ilginc qanunlar - bazar günü paltar sərməyin, çəhrayı şalvar geyinməyin**

Avropa ölkələrinə diqqət edək. İsveçrədə bazar günü paltar asmağa icazə yoxdur. Avstraliyada uşaqların siqaret çəkməsinə icazə olsa da, siqaret alması qadağandır. Sözügedən ölkədəki absurd yasaqlar bununla bitmir. Burada gənclərin əyləncə xatirinə əllərini yerə qoyub, təpəsi üstə gəzməsi də qanunla qadağan edilib. Daha bir maraqlı qadağa isə odur ki, Avstraliyada bazar günləri çəhrayı rəngdə şalvar geyinmək olmaz. Tailandda isə alt paltarı geyinmədən gəzənlər cəzalandırılır!.. Amma paltarla bağlı yasaqlar bununla bitmir. Bu ölkədə maşın sürənlər mütləq köynək geyinməlidir.

Danimarkada hökumət insanların dəmir yolunda öpüşməsini yasaqlayıb. Bundan başqa, həmin ölkədə əgər sürücü maşınının altında kiminsə və ya hansısa heyvanın qaldığını görürsə, onu işə sala bilməz. Özü də maşını işə salmaq üçün yatmış adamı və ya heyvanı oyatmaq, qovmaq yasaqdır. Maşının qabağına at arabası çıxarsa, sürücü mütləq maşınını kənara çəkməyə məcburdur.

Fransada da qəribə adlandırılacaq yasaqlar var. Burada donuzlara "Napaleon" adını qoymaq yasaqdır. Bundan başqa, Fransada sərnişinlər taksi sürücüsünün yanındakı oturacağa əyləşə bilməz. Kanadada isə yağış yağanda ağacları sulamaq olmaz.

Kanadada qapı və pəncərələr ancaq çəhrayı rəngə boyanmalıdır. Kanadada ağaca dırmaşmaq yasaqdır. Bundan başqa, həmin ölkədə bazar günləri dondurma yemək qadağan edilib. Kanadadakı daha bir əcaib yasaq isə ölü atlarla bağlıdır. Həmin atları bazar günü sürümək olmaz. Çində intellektual səviyyəyə malik olmayanları kollecə qəbul etmirlər.

**İngilislər ictimai nəqliyyatda şokolad yemir, çünki...**

İngiltərədə qadınlar ictimai nəqliyyat vasitələrində şokolad yeyə bilməzlər. Çünki elə həmin nəqliyyat vasitələrində bunu almağa imkanı olmayan hamilə qadınlar və balaca uşaqlar ola bilər. Amma İngiltərədə qadınlara məntiqli yasaqlar da var. Məsələn, onlar ictimaiyyətə açıq olan yerlərdə yarıçılpaq vəziyyətdə gəzə bilməzlər.

İtaliyada yubka geyən kişilər həbs olunur. Şotlandiyada bazar günləri balıq ovuna çıxmaq olmaz. Bundan başqa, Şotlandiyada inək sahiblərinin sərxoş olması qadağandır. AmmaE Daha əcaib bir yasaq. Şotlandiyada qapını döyüb ayaqyolundan istifadə etmək istəyən istənilən adama "yox" demək olmaz. Bu, insan haqlarına hörmətsizlik kimi qəbul oluna bilər.

**Qanun burun qurdalamağı qadağan edir, xüsusən həftə sonunda**

ABŞ-ın Georgiya ştatının Quitman şəhərində toyuqların küçəni keçməsi qadağan edilib. Arkanzas ştatının Littl Rok şəhərində sürücülərə sərinləşdirici içkilər və buterbrod satılan ərazilərdə siqnal vermək qadağandır. Floridada subay qadınların bazar günü paraşütlə tullanması həbslə cəzalandırıla bilər. Oklohomada hamburger yeyərək arxaya addımlamaq qadağandır. Arizonada eşşəklərin hamam vannasında yuxuya getməsi qadağandır.

Konnektikut ştatının Hartford şəhərində əllər üstdə küçəni keçmək qadağandır. Arizona ştatında dəvə ovu rəsmən qadağan edilib (nəzərə alsaq ki, burada dəvə əslən yoxdur). Kaliforniya ştatının San-Fransisko şəhərində Market küçəsində fillərə gəzmək qadağandır.

Yaponiyada 100 illik ənənədən irəli gələn qaydaya görə, evin balaca oğlu ailəsinə hörmətini göstərmək üçün öz sevdiyi qızla qardaşının evlənməsinə razılıq verir. Filippində maşınının nömrəsinin son rəqəmi 1, ya 2 olanlar ancaq bazar ertəsi yola çıxa bilərlər.

İsraildə burun qurdalamaq qanunla qadağan olunub. Şənbə günü bu qanunu pozanlar isə günah etmiş olurlar.

Almaniyada evə girən oğruya yastıqla vurmaq və ya bıçaq zərbəsi endirmək arasında heç bir fərq yoxdur. Yastıqla vurdunsa, yenə cinayət törətmiş olursan. Yunanıstanda uşaqların PC kompüter oyunları oynaması qadağan olunub.

Keçək digər ölkələrdəki əcaib qanunlara, qaydalara. Məsələn, Fransada dəmiryolunda öpüşmək qadağandır. Kanadanın "Bank" küçəsində bazar günləri dondurma yemək qadağandır. Bu ölkədə yağış yağanda çəmənlikləri sulamaq olmaz. Kanadanın Oşava ştatında ağaca çıxmaq, Ottava şəhərinin Bank Strit küçəsində dondurma yemək, Toronto şəhərinin Yonq küçəsində isə bazar günləri ölü atları sürüyərək aparmaq qadağandır.

1980-ci ildən etibarən Cenevrə və Sürix aeroportlarından havaya qalxan hər bir təyyarə "səs-küyə görə vergi" ödəyir. Bu verginin miqdarı 300 İsveçrə frankıdı.

Sinqapurda metroda saqqız çeynəyən həbs olunur.

Danimarkada məhbusların həbsxanadan qaçmaq hüquqları var. Ələ keçdikdə isə onları heç bir cəza gözləmir. Məntiq də bundan ibarətdir ki, əgər kimsə həbsxanadan qaçırsa, deməli, fərasətli adamdır. Ona cəza tətbiq etmək ədalətsizlik olar. Danimarka qanununa əsasən, sahibi maşının altında başqa birisinin olduğu halda, mühərriki işə salarsa, bu, cinayət hesab olunur.

Avstraliyanın Viktorio ştatında bazar günləri çəhrayı rəngli şalvar geyinmək qadağandır. Bu ölkədə azyaşlıların siqaret alması qadağandır, ancaq çəkməsi sərbəstdir.

Avstraliyanın Viktoriya əyalətində heç kəs öz evində elektrik lampasını dəyişə bilməz. Qanuna görə, bunu yalnız xüsusi lisenziyası olan elektrik edə bilər.

İngiltərədə hamilələrin istədikləri yerdə tualetə getmələrinə icazə verilir. Bu ölkədə üzərində Monarx şəkli olan pulu tərs qoymaq vətənə xəyanət kimi qəbul olunur.

London limanına girən krallığın gəmiləri liman polisinə pul ödəməlidir.

Afrika ölkəsi olan Svazilenddə 30-35 yaşlı qadınların alt paltarı geyməri qanunla qadağan edilib.

Şotlandiyada inək sahiblərinin sərxoş olmağı qadağandır.

Bazar günləri Şotlandiyada balıq tutmaq qadağandır. Bu ölkədə inək saxlayan və otaran şəxslərin sərxoş olmaları qanunla qadağan edilib.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 180 (6794) 30 avqust 2018

# Təhsil Nazirliyindən testin ləğvi ilə bağlı açıqlama

## "Söhbət test imtahanlarının ləğvindən yox, test imtahanlarının müəyyən qaydada təkmilləşdirilməsindən gedir"

**Dövlət İmtahan Mərkəzi Direktorlar Şurasının sədri Məleykə Abbaszadənin ali məktəblərə qəbul imtahanlarının test üsulu ilə keçirilməsinin iki ildən sonra ləğv ediləcəyini deməsi ekspertlər və ictimaiyyət tərəfindən müzakirələrə səbəb olub. Kimiləri artıq 26 ildir ki, tətbiq edilən test üsulunun təhsilə heç bir fayda vermədiyini, əksinə olaraq, savadsızlaşmaya səbəb olduğunu bildirir, kimiləri isə test üsulu ləğv edilərsə, yeni korrupsiya mənbəyi yaranacağı və kasıb təbəqənin uşaqlarının oxuya bilməyəcəyi qənaətindədir.**




**Təhsil nazirinin müavini, Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının üzvü Ceyhun Bayramov** jurnalistlərə açıqlamasında test üsulunun ləğv edilməyəcəyini, sadəcə olaraq, təkmilləşəcəyini bildirib. Söhbətin test imtahanlarının ləğvindən yox, test imtahanlarının müəyyən qaydada təkmilləşdirilməsindən getdiyini bildirən C.Bayramov hazırda prosesə başlanıldığını deyib: "Biz bu il IX siniflərdə orta təhsil səviyyəsində buraxılış sinfində həyata keçirilən imtahanlara nəzər salsaq, bunun fərqli bir format olduğunu görərik. Həmin imtahanlar 2 mərhələdən ibarət olub. IX sinfin buraxılış imtahanlarının ilkin mərhələsi mart ayında, ikinci mərhələ iyun ayında keçirilib. Həmin mərhələlərin qiymətləndirilməsində müəyyən fərqlər müşahidə olunub. Şagirdlər birinci mərhələdə daha çox açıq tipli suallar, ana dili fənnindən esse, riyaziyyat fənnindən yenə də yazılı misal-məsələlərin həlli, ikinci mərhələdə isə daha çox vərdiş etdiyimiz ənənəvi test üsuluna daha yaxın olan bir sistem üzrə imtahan verirdi. Bunun da özəlliyi ondan ibarətdir ki, IX sinifdə oxuyan həmin uşaqlar doqquz il öncə yeni sistemlə-kurikulumla tədrisə başlayıblar. Bu sistemdə nəzərdə tutulmuş standartların yalnız test üsulu ilə qiymətləndirilməsi mümkün deyil. Ona görə də daha geniş və əhatəli qiymətləndirmə prosesinin həyata keçirilməsi prosesinə başlanılıb".

**"XXI Əsr" Təhsil Mərkəzinin rəhbəri, təhsil eksperti Etibar Əliyev Məleykə xanımın həmin müsahibədə testin ləğv olunmasından danışmadığını dedi:** "O deyib ki, iki il sonra keçiriləcək buraxılış və qəbul imtahanlarında dəyişikliklər edilməsi nəzərdə tutulub. Məleykə Abbaszadənin fikirləri təhrif olunub. Dövlət İmtahan Mərkəzinin sədrinin çıxışında kurikulumlar əsasında imtahanlarda ediləcək dəyişikliklərdən söhbət açılır, həmçinin o da qeyd olunur ki, bu istiqamətdə hələ Təhsil Nazirliyi ilə müzakirələr aparılır. Dəyişikliklər buraxılış və qəbul imtahanlarının vahid formada həyata keçirilməsindən tutmuş, esse yazılması, açıq tipli tapşırıqların sayında dəyişikliklərə qədər geniş spektri əhatə edə bilər".

**E. Əliyev Azərbaycan cəmiyyətinin test üsulu ilə keçirilən imtahanların bəhrəsini gördüyü düşüncəsində olduğunu dedi:** "Dövlət İmtahan Mərkəzi həmişə fənn proqramlarının mənimsənilməsi məsələsini önə çəkir. Təəssüflər olsun ki, bizim məktəb müəllimlərinin böyük əksəriyyəti şagirdləri məzmundan çox test tapşırıqlarını yerinə yetirməyə alışdırırlar. Biz tez-tez eşidirik ki, şagirdlərimizin nitq qabiliyyəti zəifdir, onlar fikirlərini izah edə bilmirlər və s. Şagirdlər orta məktəbi bitirəndə onlara "kamal attestatı" verilir. Bu o deməkdir onlar məktəbdə qeyd etdiyim bacarıqlara yiyələnməlidirlər. Əgər danışmağı və yazmağı təhsilin növbəti pilləsi olan ali təhsil də aşılaya bilmirsə, belə olan halda testi qınamaq olmaz. İnkar etmək olmaz ki, test dünyanın əksər ölkələrində şagird və tələbə biliklərinin qiymətləndirilməsinin əsasını təşkil edir. Amerikanın "Təhsil aktı" sənədində yazılır ki, müəllimlər bu üsulla qiymətləndirmədə aşkara çıxarmalıdırlar ki, onların şagirdləri düşünə bilirmi? Fikrimcə, bu il 9-cu sinif məzunlarına keçirilən buraxılış imtahanları yeniliklərə pəncərə açdı. Düşünürəm ki, Təhsil Nazirliyi və Dövlət İmtahan Mərkəzi birgə çalışmaqla yaxın gələcəkdə daha rasional və təkmil imtahan sistemi yaratmağa nail olacaqlar".

❑ **Günel MANAFLI**

# Məktəbli forması seçimi-ekspertlərdən "qızıl" məsləhətlər

## Məktəbli formalarının qiyməti 40-45 manat arası dəyişir, ancaq müxtəlif mağazalarda 60-65 manata da satılır

**"Allı-güllü, iri, ağır, üzərində əcnəbi dillərdə müxtəlif yazılar yazılmış, bahalı çantalar almaq mənasızdır. Uşağın fiziki parametrlərinə uyğun sadə, yüngül, ucuz çantalar alınsa yaxşıdır. Ağır çantaları məktəbdə də lazımsız vəsaitlərlə yükləyəcəklər. Uşağın qamətini deformasiya edir. Sintetik materialdan hazırlanmış paltarlar almayın. Nisbətən baha da olsa, təbii materialdan olan paltarlar alın. Onsuz da il boyu geyinəcək. Uşağa düzgün oturma qaydalarını (vərdişi) öyrədin. Evdə öyrədin ki, məktəbdə də müəllimlər davam eləsin. Yoxsa qamətində problemlər yaranacaq".**



Bu məsləhətləri valideynlərə həkim, pediatr Vaqif Qarayev öz facebook hesabında yazaraq bildirib. Yeni dəb ili ərəfəsi valideynləri düşündürən və narahat edən əsas mövzulardan biri də məktəbli geyimləridir. "Keyfiyyətli geyimi haradan, necə almaq olar" kimi suallar bu gün bütün valideynləri düşündürür.

Orijinal məktəbli formalarının üzərində Bakı Tikiş Evinin yarlığı olur. Ancaq təəssüf ki, bu formaların saxtaları da satışda var və onların üzərinə bu yarlıqlar elə vurulub ki, onu orijinaldan ayırd etmək çətindir. Bu məktəbli formalarının qiyməti əslində yuxarı siniflər üçün 40, aşağı siniflər üçün isə 45 manatdır. Ancaq biz müxtəlif mağazalarda bu məktəbli geyimlərinin 50, 60, 65, bəzən isə daha ucuz 30-35 manata satıldığını görürük.

### Fabrikdə tikilmiş məktəbli geyimlərini haradan alaq ...

**"Bakı Tikiş Evi" Açıq Səhmdar Cəmiyyətinin satış şöbəsinin rəisi Etibar Əzimov məktəbli formalarında işlədilən parçaların Avropa laboratoriyasından sertifikatı olduğunu dedi:** "Bizim mallarımızın, parçalarımızın keyfiyyəti çox yüksəkdir. Çünki biz onu Türkiyədən alırıq və bu parça üçün Avropa laboratoriyasının sertifikatı var. Bizim "Qaynar xətt"imiz var: 597-45-39. Bu telefona zəng etməklə hər kəs özünə yaxın məntəqəni öyrənib məktəbli geyimlərini oradan ala bilər. Bizim məktəbli forması satılan 15 satış mərkəzimiz var. İkisi Sumqayıtda, biri Xırdalanda, digərləri isə Bakının ən ucqar rayonlarındadır. Məsələn, Qaradağda, Mərdəkanda, Buzovnada və digər ətraf qəsəbələrdə satış təşkil etmişik ki, insanlar məktəbli forması üçün şəhərin bu başından o başına getməsinlər. Biz məktəbli formasını paketin içərisinə qoyub veririk. Paketin üzərində bütün satış mərkəzlərimizin ünvanları və telefon nömrələri yazılıb. Kimsə gedib başqa yerdən məktəbli forması alıbsa, biz təbii ki, ona zəmanət vermirik. Düzdür, bu məktəbli formalarına "Bakı Tikiş Evi"nin adını yazıblar. Amma o geyimləri kilo ilə haradansa alıb gətirirlər və bilirlər ki, "Bakı Tikiş Evi"nin malları yaxşı gedir, ona görə də bizim adımızı yazırlar. Bu yarlıqları o qədər dəqiq kopyalayıblar ki, onu adi gözlə ayırd etmək olmur".

### 3 yolla saxta məktəbli formasını tanımaq olar...

**E.Əzimov bildirdi ki, diqqətlə baxmaqla aldığınız məktəbli formasının saxta olub-olmadığını bilmək olar:** "3 yolla saxta məktəbli formasını tanımaq olar. Birincisi, qiymət ucuzdursa, məlumdur ki, bu saxta maldır. Çünki bizim bütün mağazalarımızda qiymət vahiddir. İkincisi, parçaya toxunanda bunu bilmək mümkündür. Üçüncüsü isə saxta məktəbli formalarının tikişi əyri, keyfiyyətsiz və sanki başdan eləməklə yanaşılıb. Bu üç nüansa diqqət etməklə saxta məktəbli formasından qaçmaq olar. Çünki uşaqlar bizim gənefondumuzdur. Bizim bu şeylər üçün müəllifik hüququmuz var. Amma bizim bu hüququmuzu pozurlar. Bu, yerli istehsaldır və burada 700 qadın çalışır. Biz məhsul istehsal edirik, amma anbarda qalır. Çünki kənardan saxta forma gətirirlər, üstünə "Bakı Tikiş Evi" yazıb camaata satırlar. Bizim bütün bəlamız bundadır. Bu geyimləri mağazalarda alarkən sertifikat tələb etsinlər. Əgər satıcı sertifikat göstərə bilsə, deməк ki, bu bizim fabrikə məxsus məktəbli geyimləridir. Qiymətlərimiz isə dəyişməz olaraq qalır: 40 manat aşağı sinif uşaqlar üçün kostyumlarıdır, 46 manata isə yuxarı sinif kostyumlarıdır".

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov geyim bazarından çoxlu sayda şikayətlər aldığını bildirdi:** "Çox təəssüf ki, Azad İstehlakçılar Birliyi bu məsələ ilə bağlı dövlət orqanları qarşısında məsələ qaldırsa da, heç bir effektli nəticə əldə olunmayıb. Mən birmənalı şəkildə tərəfdarıyam ki, məktəbli formaları hansı ölkədə olur-olsun tikilsin, Azərbaycana gətirilsin, onun standartları müəyyən olunsun. Qiymət bahadır və istehlakçılar narazılıq edirlər. Çox təəssüf ki, bu sahədə monopoliya aradan götürülmür. İstehlakçıların hüquqlarının müdafiəsi haqında qanuna görə istehlakçının hüququ var ki, malın sertifikatını tələb etsin".

Qeyd edək ki, saxta geyimlər uşaqlarda müxtəlif dəri xəstəlikləri yarada bilər. Buna görə də valideynlər məktəbli formalarını seçərkən diqqətli olmalıdırlar.

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT
N 180 (6794) 30 avqust 2017

**Başımız “Qarabağ”ın Çempionlar Liqasındakı oyunlarına elə qarışdı ki, millinin dünya çempionatının seçmə mərhələsinin yaxınlaşmaqda olan oyunları yaddan çıxdı. Əslində belə olması həm təbii, həm də başadüşüləndir. “Qarabağ” klub komandamız olsa da, ölkəyə ümummilli sevinc yaşatdı. Milli komandamızın hələ bu səviyyədə bizi məsud etməsinə zaman var.**



# Prosìneçkì Norveçdən Bakıya nə gətìrəcək?

## Bakıda moddur, müxtəlif şirkətlərdə işləyən dost-tanış həftədə bir dəfə toplaşıb bir komandada oynayırlar, amma milli komanda belə olmamalıdır...

Nə bilmək olar, vaxtilə Çempionlar Liqası da bizim üçün əlçatmaz bir istək idi. Ümid edək ki, tezliklə Azərbaycan millisi də dünya və Avropa çempionatlarında ölkəmizi təmsil edəcək. Millinin “Niyə də yox” devizi bu mənada uğurlu tapıntındır. Vaxtilə tabloda komandamızın adı qarşısında həmişə “0" rəqəmi olardı, indi isə hətta son dünya çempionu Almaniyanın da qapısına yol tapa bilirik.

“Robert Prosineçki Azərbaycanda işləmiş ən uğurlu baş məşqçidir, yoxsa yox” bunu dəqiq analiz etmək üçün qrupumuzdakı indiki duruma baxmaq kifayət etmir. Milli komanda məlum, lazım olanda bir yerə toplaşır, oynayır və dağılışır. İndi Bakıda moddur, müxtəlif idarə və müəssisələrdə işləyən dost-tanış həftədə bir dəfə ayrı-ayrı yerlərdən gəlib bir komandada oynayırlar. Amma milli komanda belə olmamalıdır. Komandada sistem qurulmalıdır ki, oyunçular klublarından gəlib 3-4 gün bu sistemi yenidən təkrarlayıb meydana çıxsınlar. Azərbaycan millisində də yəqin belə bir sistem var. Mütəxəssislər deyirlər ki, məsələn, komandada müdafiəmiz güclənib. Amma unutmayaq ki, komandamız keçirdiyi son üç oyunda məğlub olaraq qapısından 9 top buraxıb. Hücum necə? Üç oyunda cəmi bir qol... Nə deyək, olanımız budur, Prosineçki gedəcək, bir başqası gələcək, nə dəyişəcək? İndi ad-sanlı baş məşqçi tapmaq çətin deyil, “Zenit” Mançinini kluba gətirdi. Amma milli komanda bir az fərqli məsələdir...

Tanınmış məşqçi Avram Qrantın Bakıya səfəri bu baxımdan maraqlı xəbərdir. Əvvəllər İsrail yığması, həmçinin “Makkabi”, “Hapoel”, “Portsmut”, “Vest Hem” və “Partizan” klublarını da çalışdırmış Avram Qrantın Bakıya niyə gəldiyi barədə dəqiq bilgi yoxdur. Amma son olaraq Qana millisini çalışdırmış Avram Qrant Prosineçkini nədən əvəz etməsin? Prosineçkinin tez-tez hansısa klublara dəvət edildiyi xəbərləri yayılır. Xeyirlisi...

Robert Prosineçki qızının qidadan zəhərlənməsi səbəbindən avqustun 22-də Bakıya qayıdıb. Oyundan 8 gün öncə... Prosineçki haqda şəxsən mən nə yaxşı, nə pis deyə bilərəm. Ortabab komanda terminindən zəhləm gedir, amma indi məhz Azərbaycan millisi elə ortabab səviyyədə oynayır demək mümkündür. Milli komandamız 7 xalla sentyabrın 1-dəki rəqibimiz Norveçdən 3 xal, San-Marinodan isə 7 xal öndədir. Şimali İrlandiya ilə Bakıda oyunda son dəqiqə məğlub olmasaydıq, indi turnir cədvəlində daha öndə ola bilərdik.



Tətildən qayıdan baş məşqçimiz yerli mediaya açıqlama verib. O, Norveçlə oyuna hazırlığın necə keçəcəyi barədə suala “ümidvaram ki, oyunçular sağlam qalacaqlar və zədələnən olmayacaq” deyə cavab verib.

“Millidə ən zəif nöqtə qapı xətti sayıla bilərmi? Kamran Ağayev oyun praktikasından əziyyət çəkir, Səlahət Ağayev səhvlər buraxır” barədə suala baş məşqçi belə cavab verib: “Təkcə hazırkı matçdan əvvəl yox, son 6 ayda Kamranda oyun təcrübəsi az idi. Ağayev əksər matçlarda meydana çıxmırdı. Bununla belə, hazırda ondan yaxşı qapıçı yoxdu ki, milliyə çağırım”. Baş məşqçi millinin oyunçuları Ramil Şeydayev Slovakiya “Jilina”sına, Emin Mahmudov isə Portuqaliya “Boavişta”sından ayrılmasına “təəssüf ki, bu suala cavab verə bilmirəm. Problemin nədə olduğunu deməkdə çətinlik çəkirəm” deyə cavab verib.



**Norveçlə səfər oyununda meydan sahibləri üçün prinsipial əhəmiyyəti yoxdur. Təsadüfi deyil ki, Azərbaycanla oyununa maraq da aşağı səviyyədədir.**

**“Report” xəbər verir ki, bu barədə yerli mətbuata Norveç Futbol Federasiyasının bilet satışı üzrə meneceri Merete Prestkvern bildirib. Onun sözlərinə görə, rəqəmlər göstərir ki, milli komandaya ictimai maraq azalıb:** “Bu da Norveç yığmasının dünya çempionatına vəsiqə şansını böyük ölçüdə itirməsindən irəli gəlir”.

**“Məşqlərdə çatışmayan cəhətləri aradan qaldırmağa çalışırıq. Müdafiə olunmaq mənasında, bəzi dəyişikliklər edirik. Meydanda daha aqressiv oyun sərgiləməliyik”. Bu sözləri Norveç yığmasının baş məşqçisi Lars Laqerbek deyib (apasport).** Yerli mətbuata açıqlama verən Laqerbek komandasının hazırkı durumunu dəyərləndirib: “Rəqibin indiki milli haqda az məlumat bilməsi bizim üçün üstünlük olar. Amma indiki dövrdə hamının təhlil proqramı var. Odur ki, rəqibin oyunu sizi nadir hallarda təəccübləndirə bilər. Çünki neçə çıxış edəcəklərini apardığınız təhlillər əsasında bilirsiz”.

**69 yaşlı çalışdırıcı Azərbaycan yığmasının oyununda da dəyişikliklərin olduğunu qeyd edib:** “Əvvəl daha çox müdafiə olunmağa diqqət ayırırdılar. İndi isə daha güclüdülər. Rəqibin yarımmüdafiə xəttində braziliyalı futbolçu çıxış edir. Gözlədiyimdən daha yaxşı oynayacaqlarını düşünmürəm. Amma istənilən halda, futbolçularımı bütün vəziyyətlərə hazırlayacam. Meydana 3 xal üçün çıxacağıq. Komandanı qələbələr formalaşdırır. Nə qədər çox qalib gəlsəniz, mental olaraq, bir o qədər güclü kollektivə çevrilərsiz”.



**“Norveçlə ev oyununda Azərbaycan yığması qalib gəlsə də, çətinliklə üzləşdi. Səfər matçında milli komanda xal qazanmaq iqtidarındadımı və nəyə ümid edə bilər” sualına da Prosineçkinin cavabı maraqlıdır:** “Mən də sizə sual verim: Şimali İrlandiya ilə Bakıdakı oyundan əvvəl 3 xal qazana biləcəyimizə ümid var idi? Uduzsaq da, britaniyalılara qarşı göstərdiyimiz oyun məndə ümid yaratdı ki, xalla qayıda bilərik”.

Norveç - Azərbaycan qarşılaşmanın baş hakimi Daniel Stefanski olacaq.

**Sentyabrın 1-də Oslodakı “Ullevaal” stadionunda keçiriləcək Norveç - Azərbaycan oyunu Bakı vaxtı ilə saat 22:45-də başlayacaq.**

**Orxan ƏLİYEV**

YENİ MÜSAVAT

Son səhifə

N 180 (6794) 30 avqust 2017

# İngilis polis öz rəqsi ilə festivalın yaraşığı oldu

**Britaniyalı polis öz rəqsi ilə "Notting-hills" festivalının ulduzu olub. Londonda keçirilən festival 34 yaşlı Deniel Qremin rəqsi ilə xeyli rənglənib. İzləyənlər tərəfindən çəkilən video sosial şəbəkədə xeyli populyarlaşıb.**

İlin əvvəlində Qrem televiziya müsabiqəsi olan "Britain's Got Talent"da iştirak etsə də, finala qədər çatmayıb. O, zaman-zaman öz bacarıqlarını İnstaqram vasitəsilə nümayiş etdirir. "Notting-hills" karnavalı 1966-cı ildən bəri hər il keçirilir. Burada aparıcı rolu adətən Britaniyanın afrokarib cəmiyyəti oynayır. Ötən bayramda 2 milyondan artıq adam iştirak edib. İzləyicilərinin sayına görə bu karnaval ancaq Tobaqo və Trinidad festivallarından geri qalır.



# Diqqət çəkmək üçün itini zəhərlədi



**Şotlandiyanin Qlazko şəhərində çalışan tibb bacısı özünə diqqət çəkmək üçün itini bir neçə dəfə zəhərləyib. Bu barədə "The Daily Telegraph" məlumat verib.**

28 yaşlı tibb bacısı Corcina Bretman zaman-zaman öz itinə insulin inyeksiyası edib. İtin vəziyyəti pisləşən kimi tibb bacısı onu çalışdığı klinikaya aparırmış. Həkimlər isə hiss ediblər ki, it tez-tez qəribə simptomlarla xəstəxanaya düşür. Hər dəfə onun qanında qlükozanın miqdarı aşağı olurmuş. Amma bundan savayı, o, hər zaman sağlam olurmuş. Veterinarlar onun qanına insulin yüklənməsindən şübhələniblər.

Bretmanı işdən çıxarıblar və ev heyvanına qarşı işgəncəyə görə o, ittiham olunub. Sentyabrda məhkəmə onun işinə baxacaq və qərar çıxaracaq. Qadını 20 min funt sterlinq məbləğində cərimə və ya bir ilə qədər həbs cəzası gözləyir. İtə isə yeni sahib tapacaqlar. Tibb bacısının bu hərəkətinin səbəbi ciddi müzakirə mövzusudur. Qadın ilkin ifadəsində bildirib ki, bununla diqqət çəkməyə çalışıb. O, yalnızlıqdan əziyyət çəkdiyini deyib. İti isə ancaq heyvansevər imic qazanmaq üçün saxlayıb.

# Sevgisiz insan xəstəliklərə daha tez tutulur

**Alimlərə görə, sağlam sevgi insanı xoşbəxt edir, asılı sevgi isə depressiv. Eşq aqressivliyi azaldır, insan daha xoşniyyətli, xoşxassiyyət olur. Eşqə düşən insan ətrafına qəzəb, neqativlik deyil, xoşbəxtlik, pozitivlik saçar. Xoşbəxt olan insan ətrafındakılara qarşı qırıcı yanaşmaz.**

Sevgi beyində kimyəvi prosesi canlandıran, sürətləndirən, aktivləşdirən ən əsas duyğudur. Beyin nə qədər yaxşı çalışırsa, sevgi də o qədər yaxşı davam edir. İnsanın beyni donmuş, tükənmiş, paylaşmaya açıq deyilsə, deməli, sevgi də bir o qədər tükənib. Sevgi zehni açar, hormonları canlandırar.

Sevən beyin daha məhsuldar, daha sağlamdır. Beynin ən sağlam vitamini sevgi və eşqdir. Eşq beyin qabığının funksiyasını sürətləndirir. İmmunitet sistemi üzərində də faydalı təsirləri var. Müqaviməti artırır. Sevdiyini itirməklə isə tam tərsi olur, bədənin müqaviməti azalır və xəstəliklər insanı daha tez yaxalayır.



# İnsan beyni uzaqdan idarə ediləcək



**Buffalo Universitetinin alimləri siçovullar üzərində maraqlı araşdırma aparıblar. Belə ki, fizik Arnd Prallenin rəhbərliyi altında həyata keçirilən sınaq möhtəşəm nəticə verib. Məqsəd beyni kənardan idarə etmək istəyini reallaşdırmaq olub.**

Beləliklə, öncə canlının orqanizminə xüsusi yaradılmış DNT zənciri və nanohissəciklər yeridilib. Onlar da öz növbəsində müəyyən neyronlara bağlanıb. Sonra isə canlını kənardan fasiləli maqnit sahələri hesabına idarə ediblər. Siçovulun yeriməsini, bədənin müəyyən hissələrinin fəaliyyətsiz edilməsini həyata keçiriblər. Bir sözlə, onların bədənləri üzərində tam idarəetməyə sahib olublar. Bu elm aləmində fantastik nəticədir.




**QOÇ** - Şəxsi büdcənizdə müəyyən çətinlikləriniz olsa da, gün ərzində rastlaşdığınız hadisələr əhval-ruhiyyənizi yüksəldəcək. Çalışın ki, qətiyyətsiz hərəkətlərinizə son qoyasınız.

**BUĞA** - Yalnız şəxsi büdcənizi artırmaq istiqamətində müəyyən uğurlara yiyələnə bilərsiniz. Qalan məsələlərdə isə risk etməyə dəyməz. Axşamüstü sövdələşmələrə getsəniz, aldanacaqsınız.

**ƏKİZLƏR** - Maraqlı görüşlər yolunuzu gözləyir. Gələn ay atacağınız mühüm addımları reallaşdırmaq üçün bu gündən maksimum bəhrələnməlisiniz. Sevgi məsələlərində daha səmimi olun.

**XƏRÇƏNG** - Saat 14-ə qədər ümumi əhvalınız aşağı səviyyədə olsa da, sonrakı müddətdə vəziyyət xeyrinizə olacaq. Boş və mənasız şeylərə görə çılğınlıq etməyin. Təmkinli olmağa çalışın.

**ŞİR** - Astroloji göstəricilər bu təqvimin sizin üçün o qədər də rahat keçməyəcəyini bəyan edir. Səhhətinizlə bağlı problemlər və bəzi cəhdlərinizin boşa çıxma ehtimalı var.

**QIZ** - Ulduzların düzümü şəxsi büdcənizdə artım olacağını bəyan edir. Bu istiqamətdə bütün səylərinizi birləşdirməlisiniz. Nahardan sonra isə səhhətinizi qorumalısınız.

**TƏRƏZİ** - Sinoptiklərlə heç də həmişə razılaşmayan ulduzlar bu təqvimin sərin keçəcəyini bəyan edir. Odur ki, planlarınızı təxirə salmayın. Əsas enerjinizi istirahətə və sevgiyə yönəldin.

**ƏQRƏB** - Durumunuzdan bəlli olur ki, məqsədlərinizi reallaşdırmaqda sizə qarşı manelər çoxdur. Amma narahat olmağa dəyməz. Çünki enerji və gücünüz sizi qələbəyə yaxınlaşdıracaq.

**OXATAN** - İşgüzar danışıqlarda iştirak etmək üçün sərfəli vaxtdır. Bütün müsahibləriniz sizinlə razılaşacaq. Amma gərək siz də reallıqdan yararlanasınız. Kimisə aldatmaq fikrinə düşməyin.

**OĞLAQ** - Təəssüf ki, Göy qübbəsi gərgin bir gün yaşamaq ehtimalınızdan xəbər verir. Bu amili nəzərə alıb hər addımda ayıq-sayıqlığınızı artırmalısınız. Haqlı olsanız da, mübahisələrə girişməyin.

**SUTÖKƏN** - Ümumi mənzərə bir qədər passivdir, daha doğrusu öhdəlikləriniz enerjinizdən çox olacaq. Ünsiyyətdə olduğunuz insanlarla mübahisələr, o cümlədən işlə bağlı uğursuzluqlar sizi yora bilər. Bir az dincəlin.

**BALIQLAR** - Əgər uzaq səfərə çıxmaq planınız varsa, onu təxirə salmayın. Maliyyə çətinliyiniz olsa belə, borc götürüb yola çıxın. Çünki bu addımı atmaqla, gələcək uğurlarınıza təkan verəcəksiniz.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Musiqi beynin qocalmasını əngəlləyir



**Amerikalı alimlərin bu yaxınlarda apardıqları təcrübənin nəticəsi çox maraqlı olub. Məlum olub ki, musiqi ilə məşğul olmaq beyni vaxtından əvvəl qocalmaqdan qoruyur. ABŞ alimlərinin sınaqlarında 80 könüllü iştirak edib. Təcrübə və analizlərin nəticəsi göstərib ki, musiqi alətlərində ifa edən yaşlı adamların baş beynindəki neyron birləşmələrin sayı cavan adamlarda olduğu kimidir.**

Beləliklə, alimlər sübut ediblər ki, musiqi ilə məşğul olmaq beyində yaşla əlaqədar degenerativ prosesləri ləngidir. Buna görə onlar yaşlı insanlara müntəzəm olaraq musiqi ilə məşğul olmağı tövsiyə edirlər.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100